www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 12 fevral 2016-cı il Cümə № 33 (6354) Qiyməti 60 qəpik

## Xəbər

**Generalın adam döyən idmançı qohumunun əlinə türmədə süpürgə verildi**

yazısı səh.2-də

## Gündəm

### ABŞ-dan separatçılara "qırmızı vərəqə"



Obamanın Qarabağ separatçılarını maliyyə yardımından kənarda qoymasının pərdəarxası; rəsmi Bakı şərh etməyə tələsmir

yazısı səh.9-da

### Leyla və Arif Yunusun ölkəni tərk etmələrinə icazə verilmədi

yazısı səh.7-də

### Rusiyanın enerji "üçbucağı" təklifi Azərbaycana nə vəd edir?

yazısı səh.12-də

### Avropa Məhkəməsi hökuməti 83 min avro məbləğində cərimələdi

yazısı səh.7-də

*Yeni QHT koalisiyası:*

### "Danışıq masasına oturmaq niyyətimiz yoxdur"

yazısı səh.6-da

### Bölgə müxalifətini nazirlərin görüşlərinə buraxmırlar

yazısı səh.5-də

### Bu gün Münhen Təhlükəsizlik Konfransı başlayır: tədbiri mühüm edən səbəblər...

yazısı səh.12-də

### "Parlamentin buraxılmasının böhrana nə dəxli?" - ittihamına cavab gəldi

yazısı səh.7-də

### Prezidentin "Valyuta tənzimi haqqında" Qanunu imzalamaması təqdir edilir

yazısı səh.10-da

### Ölkədə yaşayışın səviyyəsi: "2", yoxsa "4"?

yazısı səh.11-də

### Həbsdə olan hüquq müdafiəçisinin səhhəti pisləşib

yazısı səh.6-da

## Sabiq təhsil naziri ilə həbsdəki məmuru nə birləşdirir?

# MİSİR MƏRDANOVUN ADI ŞOK YEYİNTİ İTTİHAMINDA

Rabitə və Yüksək Texnologiyalar Nazirliyində həbs edilənlər onların vaxtilə iqtidardakı himayədarlarını hədəfə gətirib; Vidadi Zeynalovu vəzifəyə gətirən o zamankı təhsil naziri Misir Mərdanov, deyəsən, təkcə Əli Abbasovu deyil, özünü də cəncələ salıb...




yazısı səh.5-də

## Özünü yandıran 23 yaşlı gəncin dəhşətli həyat hekayəsi

Əməkdaşımız körpəsinə dərman ala bilmədiyi üçün canına qıyan Taleh Ömərlinin ailəsindən yazır

yazısı səh.11-də



### Azərbaycan-ABŞ münasibətlərində Nuland düyünü

yazısı səh.8-də



### Sabir Rüstəmxanlı radikallaşmasının səbəbini açıqladı

yazısı səh.6-da



### Abid Şərifovun şirkətindəki tətillə bağlı yeni xəbərlər

yazısı səh.13-də



# Dollar bahalaşdı

**Fevralın 11-də Bakı şəhərinin nağd valyuta bazarında saat 17:00-dan sonra ABŞ dollarının satış məzənnəsi 1,62 AZN/USD-yə yüksəlib, alış məzənnəsi isə 1,53 AZN/USD-yə kimi azaldılıb.**

Günün ilk yarısında kommersiya bankları "exchange" əməliyyatlarını 1,5620-1,5700 AZN/USD məzənnəsi ilə aparıb.

Analitiklərin fikrincə, nağd dollar məzənnəsinin kəskin dəyişməsi Mərkəzi Bankın (AB) dünənki valyuta hərracının nəticələri məlum olduqdan sonra baş verib. Belə ki, AMB dolların sabah üçün rəsmi məzənnəsini 0,55% artıraraq 1,5745 AZN/USD səviyyəsində müəyyənləşdirib.

"Beləliklə, son günlərdə müşahidə olunan manatın möhkəmlənməsi prosesi başa çatıb. Buna əsas səbəb isə dünya bazarında neftin qiymətinin son günlər ərzində 15%-dək enməsi olub. Bundan daha önəmlisi isə Rusiya Bankının (Mərkəzi Bank) rublun məzənnəsinə müdaxilə etməyəcəyi barədə açıqlaması olub ki, məhz bu açıqlamadan sonra Rusiyada dolların məzənnəsi 2,4% artaraq 80,6RUR/USD-yə çatıb. Artıq qısa müddət ərzində dolların 100 rubla qədər bahalaşması mümkündür ki, bu da manatın məzənnəsinə ciddi təsir edəcək", - deyə analitiklər qeyd ediblər.

Qeyd edək ki, bu gün üçün rəsmi məzənnə 1,5659 AZN/USD səviyyəsində müəyyən edilib. Banklar 4%-lik marja limitini nəzərə almaqla nağd dolların minimal alış məzənnəsini 1,5032 AZN/USD, satış məzənnəsini isə 1,6285 AZN/USD həddində məyyən edə bilər. ("Report")

# Baş Prokurorluq: «İlhamə Quliyeva dindirilib»



**Baş Prokurorluq xalq artisi İlhamə Quliyevanın dindirilməsi ilə bağlı məsələyə aydınlıq gətirib. Baş Prokurorluğun mətbuat xidmətinin rəhbəri Eldar Sultanov modern.az saytına bildirib ki, İlhamə Quliyeva keçmiş köməkçisi Mehriban Hüseynovanın təqsirləndirildiyi cinayət işi üzrə zərərçəkmiş şəxs qismində istintaqa cəlb edilərək ifadəsi alınıb.**

E. Sultanov həmçinin qeyd edib ki, İ. Quliyevanın səhhəti nəzərə alınaraq ifadə müğənninin yaşadığı mənzildə alınıb.

Qeyd edək ki, "Yeni Musavat"ın məlumatına görə, fevralın 10-da Bakı Şəhər Prokurorluğundan istintaqa çağırış alandan sonra müğənninin durumu kəskin dəyişib. Hətta ayaqları tutulub. Elə bu səbəbdən də müğənni çağırış üzrə göstərilən saatda prokurorluğa gedə bilməyib. Onun vəkilinin israrlı xahişlərindən sonra müğənninin durumunu nəzərə alan prokuror onun öz evində dindirilməsi qərarını verib.

**İlhamə Quliyeva səhhəti ilə bağlı APA-ya açıqlamasında deyib:** "Səhhətimdə ciddi problem yoxdur, özümü yaxşı hiss edirəm. Sadəcə, bir müddət əvvəl aldığım müalicəyə görə həkim nəzarətindəyəm. Müstəntiq mənə zəng vurdu ki, açıqlamam lazımdır. Onu evə dəvət etdim, çox sağ olsunlar, hörmət edib gəldilər. Bu, adi qaydadır, qeyri-adi heç nə yoxdur. Məhkəmə yaxınlaşır, mənim bəzi məsələlərə aydınlıq gətirməyim lazımdır".

**İlhamə Quliyeva mediadan baş verən məsələlərlə bağlı onu narahat etməməyi xahiş edib:** "Xahiş edirəm, mənə müraciət etməsinlər, heç kimə müsahibə verməyəcəyəm. Yekun söz məhkəmədə deyiləcək. Kim nə yazır yazsın, kim nə danışır, danışsın. Məhkəmədə çox şey açılacaq, qulluqçunun havadarları üzə çıxacaq".

## "Qaya Mətbuat Yayımı" MMC!

**- İtənilən qəzet və jurnallar həm də sərfəli qiymətə:**

- Əgər siz qəzet və jurnalların rahatlıqla evinizə və ya ofisinizə çatdırılmasını;

- Mətbuatı sldıqdan sonar abunə haqqını ödəmək və bu ödənişin formasını sərbəst seçmək hüququndan istifadə etmək;

- Tirajınızda lazım gəldikdə dəyişikliklər etmək;

**Ən başlıcası ayda 26 dəfə nəşr olunan**
**"Yeni Mesavat" - 0.60 AZN**
**və bundan əlavə 2500 adda yerli**
**və xarici nəşrlər.**

- Abunə yazılmaq üçün uzağa getmək lazım deyil,

**Telefonla zəng etməyiniz kifayətdir:**
**Bakı şəh. 564-63-45; 598-35-22**

- Respublikanın digər böyük şəhərlərinə də abunə qəbul olunur:

# Adam döyən general qohumunun həbsxanada süpürgə ilə fotoları yayılıb

**Serhed.info saytı bir qrup idmançı ilə yanacaqdoldurma məntəqəsinə gələrək orada operator və mühafizə xidmətlərini yerinə yetirən şəxsləri döyən İsa Əzizovun həbsxana fotolarını yayıb.**



İza Əzizov dostları ilə 90-HN-999 dövlət nömrə nişanlı «Bentley» avtomobilində Tbilisi prospektində yerləşən AZPETROL yanacaqdoldurma stansiyasına gəlib. YDM əməkdaşından avtomobilə yanacaq vurmağı xahiş edəndən sonra gənclərdən biri əməkdaşa maşının pəncərəsindən 100 manatlıq əsginaz uzadıb.

Yanacaqdoldurma stansiyasının əməkdaşı deyib ki, xırdası yoxdur və onu gözləməyi xahiş edib. Bu cavab «Bentley»nin sərnişinlərinin xoşuna gəlməyib və onlar gənc oğlanla sözləşməyə başlayıblar.

Vəziyyəti aydınlaşdırmaq üçün YDM-in mühafizəçisi Sadiq Bağırov maşına yaxınlaşıb və işin nə yerdə olduğunu öyrəndikdən sonra nəzakətli tərzdə gözləməyi xahiş edib ki, əməkdaş pulu xırdalaya bilsin. Nədənsə bu cavab xuliqanları özündən çıxarıb və onlar avtomobildən çıxaraq mühafizəçini müşahidə kameralarının olmadığı, YDM-in ərazisində yerləşən mağazaya tərəf çəkib aparıblar. Bir neçə dəqiqə sonra elə həmin yerə ikinci avtomobil - ağ rəngli «Prado» yaxınlaşıb. Onun içindən bir neçə nəfər idmançı bədən quruluşlu gənc çıxıb və YDM işçiləri ilə keşikçilərini kütləvi şəkildə döyməyə başlayıblar.

Həmin vaxt yoldan keçən vətəndaşlardan bəziləri dalaşanları ayırmağa cəhd etsələr də, özləri də azğınlaşmış qoluzorlulardan nəsiblərini alıblar. Lakin kütləvi dava xuliqanlara az görünüb və «Bentley»nin sürücüsü maşının yanına qayıdaraq, oradan silah götürüb və hamını güllələyəcəyi ilə hədələməyə başlayıb. Dostlarından biri silahı onun əlindən almağa müvəffəq olub. Bundan sonra da «Bentley»nin sakitləşmək bilməyən sahibi POS-terminalı qopararaq onunla mühafizəçi Sadiq Bağırovun başına zərbələr endirib. Hadisənin baş qəhrəmanı nüfuzlu Azərbaycan generalının qohumu İsa Əzizov olub.

Nəsimi Rayon Məhkəməsində hakim Elman İsayevin sədrliyi ilə keçirilən prosesdə İsa Əzizov və Mahir İsgəndərov barələrində 30 sutka inzibati həbs qərarı çıxarılıb.

# Cahangir Hacıyevin məhkəməsi fevralın 19-na təyin edildi

**Fevralin 11-də Səbayel Rayon Məhkəməsində Azərbaycan Beynəlxalq Bankının İdarə Heyətinin həbsdə olan sabiq sədri Cahangir Hacıyevin Baş Prokurorluğun qərarının mübahisələndirilməsi ilə bağlı verdiyi müraciətə baxılıb. Bu barədə" Trend"ə C.Hacıyevin vəkili Aqil Layicov məlumat verib.**

Vəkil bildirib ki, prosesə Baş Prokurorluqdan nümayəndə gəlmədiyi üçün məhkəmə iclası fevralın 19-na təxirə salınıb.

Xatırladaq ki, C.Hacıyev Baş Prokurorluğun qərarı ilə istintaq hərəkətləri ilə əlaqədar ötən il dekabrın 30-dan bu il yanvarın 21-dək saxlanıldığı 1 saylı Bakı İstintaq Təcridxanasından Daxili İşlər Nazirliyinin Baş Mütəşəkkil Cinayətkarlıqla Mübarizə İdarəsinə köçürülüb. C.Hacıyev isə qərarı mübahisələndirib və Səbail rayon Məhkəməsinə müraciət edib.

C.Hacıyev Cinayət Məcəlləsinin 179.3.2 (külli-miqdarda mənimsəmə), 308.2 (Vəzifə səlahiyyətlərindən sui-istifadə; ağır nəticələrə səbəb olduqda), 178 (dələduzluq), 178.3.2 (külli miqdarda ziyan vurmaqla törədildikdə), 179 (Mənimsəmə və ya israf etmə), 179.2.3. (şəxs tərəfindən öz qulluq mövqeyindən istifadə etməklə törədildikdə), 309 (Vəzifə səlahiyyətlərini aşma) və 312-ci (Rüşvət vermə (aktiv rüşvətxorluq) maddələri ilə ittiham olunaraq barəsində Nərimanov rayon Məhkəməsinin qərarı ilə 4 ay müddətinə həbs qətimkan tədbiri seçilib.




# "DəmirBank" "AGBank"la birləşməkdən imtina etdi

**Ötən ay "DəmirBank" və "AGBank" arasında iki bankın konsolidasiyası ilə bağlı ilkin niyyət protokolu imzalandıqdan sonra "DəmirBank" rəhbərliyi bu istiqamətdə aktiv müzakirələr aparıb, konsolidasiyanın hər iki tərəfə və ümumilikdə bank sektoruna mümkün təsirləri araşdırılıb.**

Bankdan "APA-Economics"ə verilən məlumata görə, "DəmirBank" ASC-nin Müşahidə Şurası birləşməni səhmdarların, əmanətçilərin, xarici kreditorların və bütün digər hissədarların maraqları nöqteyi-nəzərindən qiymətləndirib və müzakirələrin nəticəsi olaraq sözügedən konsolidasiyanın məqsədəuyğun olmadığına dair qərar qəbul edib.

# "Sabah" qəzeti Azərbaycandan üzr istəyib

**Üzrxahlıqda bildirilir ki, fevralın 6-da "Sabah" qəzetində "Türkiyənin turizm təcrübələrindən faydalanırıq" başlıqlı yazı dərc olunub. Xəbərdə yer alan Azərbaycan xəritəsində səhv nəticəsində Dağlıq Qarabağ bölgəsi və onun ətrafında olan torpaqlar başqa ölkənin sərhədləri daxilində göstərilib.**

Qeyd olunur ki, Azərbaycanın Ankaradakı səfirliyi qəzetin redaksiyasına etiraz məktub ünvanlayıb. "Xəbəri düzəldirik və üzr istəyirik", - deyə, qəzetin üzrxahlıq mətnində bildirilir.

Yazıda Azərbaycanın Ankaradakı səfirliyi tərəfindən göndərilən məktubun mətni də yerləşdirilib. Məktubda göstərilib ki, Dağlıq Qarabağ daxil olmaqla, Azərbaycan torpaqlarının 20 faizi Ermənistanın işğalı altındadır:

"1994-cü ildə atəşkəs haqqında müqavilənin imzalanmasına baxmayaraq, atəşkəs rejimi təmas xəttində Ermənistan ordusu tərəfindən tez-tez pozulur. BMT, ATƏT, Avropa Parlamenti və s. beynəlxalq təşkilatlar, eyni zamanda Türkiyə də daxil olmaqla, bir çox ölkələr tərəfindən bu işğalın beynəlxalq hüququn normalarının pozulması səbəbindən qəbuledilməz olduğu təsdiq edilib".

Xatırladaq ki, İstanbulda Dünya Turizm Forumu çərçivəsində keçirilən və nazirlərin iştirak etdiyi panel barədə "Sabah" qəzetinin saytında məqalə yayımlanıb. Məqalədəki fotoda Azərbaycan, Makedoniya, Qana və Türkiyənin nazirləri göstərilib. Nazirlərin arxa fonunda ölkələrinin bayrağı əks edilən xəritələr yerləşdirilib.

Azərbaycanın mədəniyyət və turizm naziri Əbülfəs Qarayevin arxa fonundakı Azərbaycanın xəritəsində işğal altında olan Dağlıq Qarabağ göstərilməyib.



# Azay Quliyev İsveç Krallığının səfiri ilə görüşdü

Fevralın 11-də Prezident yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasında İsveç Krallığının Azərbaycan, Tacikistan, Türkmənistan və Özbəkistandakı səfiri xanım İnqrid Tersmanla görüş keçirilib.

Xanım İnqrid Tersman Azərbaycan və İsveç arasında bir çox sahələrdə səmərəli əməkdaşlığın mövcudluğunu vurğulayıb. Səfir Azərbaycanda vətəndaş cəmiyyətinin mövcud vəziyyəti və şuranın fəaliyyəti haqqında məlumat almaq istədiyini bildirib.

Şura sədri Azay Quliyev şuranın fəaliyyəti haqqında səfirə ətraflı məlumat verib. Azay Quliyev şuranın yarandığı gündən QHT-lərə konsultativ, informasiya, təşkilati-texniki, maliyyə və metodik dəstək verdiyini deyib. Ötən 8 il ərzində şura 4500-dən artıq yerli QHT-nin, 2013-cü ildən isə 60-a yaxın xarici QHT-lərin layihəsini maliyyələşdirib. Şura sədri QHT-lərlə bağlı qanunvericiliyinə edilən son əlavə və dəyişikliklərin əsas məqsədinin QHT-lərin fəaliyyətində şəffaflıq və hesabatlılığı artırmaq və effektiv koordinasiyanı təmin etmək olduğunu səfirin diqqətinə çatdırıb.

A.Quliyev Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli istiqamətində aparılan danışıqlar prosesində indiyədək hər hansı irəliləyişin əldə olunmamasına görə obyektiv və ədalətli mövqe tutmayan beynəlxalq ictimaiyyətin böyük məsuliyyət daşıdığını qeyd edib. ATƏT-in Minsk Qrupunun fəaliyyətini tənqid edən Azay Quliyev 2007-ci ildə BMT Baş Assambleyasının iclasında "Azərbaycanın işğal edilmiş ərazilərində vəziyyətə dair" qətnamənin əleyhinə səs verən 7 ölkədən 3-nün həmsədr ölkələr olduğunu vurğulayıb: "Bu yaxınlarda ATƏT PA-da Robert Volterin müəllifi olduğu "Dağlıq Qarabağ və Azərbaycanın ətraf rayonlarında zorakılıq hallarının artması" adlı hesabatın müzakirəsi ilə bağlı Minsk Qrupu həmsədrlərinin verdiyi bəyanat faktiki olaraq Ermənistanın müdafiəsinə yönəlmişdir. Həmsədrlər bu bəyanatla digər beynəlxalq təşkilatların problemin həllinə töhvə verməsinə qarşı çıxmış və bu məsələnin inhisarlarından kənara çıxmasına razı olmadıqlarını bəyan etmişdir".

A.Quliyev İsveçin adıçəkilən münaqişənin həlli prosesində daha aktiv rol oynamasının və münaqişə ilə bağlı həqiqətlərin Avropanın siyasi dairələrinə çatdırılmasında səylərinin artırmasının vacibliyini qeyd edib.

Ətraflı məlumata görə şura sədrinə təşəkkürünü bildirən xanım İ.Tersman İsveç Krallığının xarici işlər naziri, xanım Margot Vallströmin bu günlərdə Azərbaycana etdiyi səfərində qeyd olunan məsələlərin müzakirə edildiyini bildirib. Xanım İnqrid Tersman bu səfərin iki ölkə arasında münasibətlərin gələcəkdə daha da inkişaf edəcəyini göstərdiyini deyib.

Görüş müxtəlif mövzular ətrafında müzakirələrlə davam etdirilib.

# "MTN işi"nin 4-cü ayı

## Eldar Mahmudovla bərabər, cinayətlərdə adı keçən bəzi şəxslər də hələ azadlıqdadır

**Ötən il oktyabrın 17-də Milli Təhlükəsizlik Nazirliyində (MTN) gecəyarısı həyata keçirilən xüsusi əməliyyatın 4 ayı yaxınlaşır. Eldar Mahmudovun nazir kreslosu ilə vidalaşması ilə nəticələnən əməliyyatdan dərhal sonra nazirliyin mərkəz, idarə və şöbələrinin əksər əməkdaşları istintaqa cəlb olunublar.**

Əməliyyatdan 2 ay sonra prezident İlham Əliyev Dövlət Təhlükəsizliyi Xidmətinin və Azərbaycan Respublikasının Xarici Kəşfiyyat Xidmətinin yaradılması haqda fərman imzalamaqla, faktiki olaraq, MTN-in qurum olaraq ləğvinə imza atmış oldu. Həmin vaxt artıq MTN-in 5-dən çox generalı da daxil olmaqla, xeyli əməkdaşı həbsə alınmışdı.

Ləğv olunmuş nazirliyin Energetika və Nəqliyyat Sahələrində Təhlükəsizlik Baş İdarəsinin sabiq rəisi, general-mayor Akif Çovdarov, MTN-in Monitorinq Mərkəzinin rəisi, general-mayor Teymur Quliyev, MTN-in aparat rəhbəri general - mayor Fərhad Vahabov, Antiterror Mərkəzinin rəisi olmuş general-mayor Elçin Quliyev, MTN-nin Transmilli İqtisadi Cinayətkarlıqla Mübarizə Baş İdarəsinin rəisi, general-mayor Sübahir Qurbanov, nazirliyin Əməliyyat-texniki idarəsinin rəisi, general-mayor Natəvan Mürvətova, Monitorinq Mərkəzinin əməkdaşları Fərhad Atayev, Anar Şirəliyev, Eşqin Əliyev, Elşad Əzizov, Transmilli İqtisadi Cinayətkarlıqla Mübarizə Baş İdarəsinin şöbə rəisi, polkovnik Fizuli Əliyev, İstintaq Baş İdarəsinin rəis müavini Sahib Ələkbərov, şöbə rəisi, polkovnik-leytenant Vüsal Ələkbərov, MTN-nin Baş Əks Kəşfiyyat İdarəsinin şöbə rəisi polkovnik Mirəziz Əsgərov, MTN əməkdaşları Mehman Abdullayev, polkovnik Füzuli Ələsgərzadə həbsdədir. Nazirlikdəki xüsusi əməliyyat zamanı həbsə alınan ilk 7 nəfərdən biri, qurumun Antiterror Mərkəzinin rəis müavini olmuş İlqar Əliyevin Bakı İstintaq Təcridxanasında saxlandığı kamerada meyiti aşkarlandı.

Baş Prokurorluğun "MTN işi" ilə bağlı yaydığı son məlumata görə, iş üzrə ümumilikdə 22 şəxs təqsirləndirilən şəxs qismində cəlb edilib. Onlardan 20 şəxs həbsə alınıb. 1 nəfər barəsində başqa yerə getməmək haqda iltizam qətimkan tədbiri seçilib. İstintaqdan yayınan 1 şəxs barəsində həbs-qətimkan tədbiri seçilməklə axtarış elan edilib.

İş üzrə qaçaq statusunda olan şəxsin MTN-in "işvərəni" kimi adı çıxarmış, Eldar Mahmudovun yaxın ətrafına daxil olan "Akula Akif" kimi tanınan Akif Mustafayev olduğu bildirilir. A.Mustafayevin Fransada gizlənməsi haqda mətbuatda yazılar dərc olunub.

İş üzrə 130 epizod araşdırılır. MTN-çilərin cinayət əməlləri nəticəsində hüquqları pozulmuş 65 nəfər zərərçəkmiş şəxs qismində tanınıb.



MTN-dən qovulanların isə sayı-hesabı yoxdur. Onlardan bir neçəsinin kimliyini dəqiqləşdirə bilmişik. Qovulanlar sırasında Eldar Mahmudovun sayəsində Azərbaycanın ən gənc generallarından biri olan 36 yaşlı general-mayor Vüqar Allahquliyev də var. Bu şəxs MTN-in hərbi hissə komandiri vəzifəsindən uzaqlaşdırılıb. General təhlükəsizlik sistemində işə yararsız hesab edilib. V.Allahquliyev 2015-ci il martın 27-də general-mayor rütbəsi ilə təltif edilib. 36 yaşlı general Eldar Mahmudovun qohumudur. V.Allahquliyevin atası Zülfüqar Alllahquliyev sabiq MTN rəhbəri Eldar Mahmudovun həyat yoldaşının dayısıdır. Bundan əlavə, Z.Allahquliyev Azərbaycanın ən varlı iş adamlarından sayılır. Məlumata görə, onun bir neçə ticarət obyektləri və kərpic zavodları var.

Eldar Mahmudovun nazirliyi dövründə Baş İdarə rəisi olan general-mayor Tarverdi Məmmədov, Baş İdarə rəisi, general-mayor Pərviz Səfərov, MTN-in Hava Limanı İdarəsinin rəisi, polkovnik Pərviz Vəliyev, nazirliyin Kadrlar İdarəsinin rəis müavini, polkovnik Tehran Babatov, MTN-in Xətai rayon şöbəsinin rəisi Rafiq Hümbətov, milli təhlükəsizlik nazirinin müavini, general-mayor Elçin Əliyev, MTN-in Antiterror Mərkəzinin idarə rəsinin müavini, polkovnik Nail Tağızadə, Kadrlar Baş İdarəsinin əməkdaşı Aysel Əlizadə və adlarını dəqiqləşdirə bilmədiyimiz bir çox vəzifəli şəxslər qurumun ləğvindən əvvəl tutduqları vəzifələrdən uzaqlaşdırılıblar. MTN-in əvəzində yaradılan yeni quruma isə bu şəxslərin geri qaytarılmadığı haqda məlumatlar var.

Ötən 4 ay ərzində bir neçə dəfə Eldar Mahmudovun həbs olunması xəbəri yayılsa da, hər dəfə bu xəbər təsdiqini tapmayıb. Son 10 ildə MTN-ə rəhbərlik edən, orada baş verən ağır cinayətlərə bu və ya digər formada aidiyyəti olan sabiq nazirin həbs olunmaması bir çox suallar doğurur. Bəzi ehtimallara görə, E.Mahmudovun həbsinin yubanması istintaqın onun əleyhinə materiallar toplaması ilə əlaqədardır. Eldar Mahmudova xüsusi yaxınlığı ilə seçilən, onun tərəfindən MTN-ə cəlb olunan və nazir müavini vəzifəsinə qədər irəli çəkilən Hilal Əsədov da bu gün azadlıqdadır. Sahibkarlara qan udduranların sırasında ilk cərgədə qərarlaşan Baş İstintaq İdarəsinin rəhbəri Mövlan Şıxəliyev də azadlıqdır. O, Novxanıdakı pəncərələri dənizə açılan imarətində istirahət edir. Halbuki M.Şıxəliyevin adı MTN-də sahibkarlara qarşı həyata keçirilən terror əməliyyatının aktiv iştirakçısı kimi dəfələrlə çəkilib.

"MTN işi" üzrə həbs olunanlar Bakı istintaq Təcridxanasında saxlanılırlar. Onlara ilkin olaraq Cinayət Məcəlləsinin 3 maddəsi - 308.2, 309.1 və 302.2-ci maddələri ilə ittiham irəli sürülüb.

❑ **E.MƏMMƏDƏLİYEV**

# Bir kəllə qənd, üç masa...

## İqtisadi böhran toy israfçılığına son qoya bilərmi?

**Xalqımızın toy adətləri çoxdan əvvəlki cəlbediciliyini itirib. Toylarımız sanki yarış meydanına çevrilib. "Qonşudan qalma dala" məsələni əsas tutaraq daha gözəl, daha bahalı toy təşkil etmək, daha məşhur müğənniləri dəvət etmək, buna görə öyünmək üçün toy sahibləri "dəridən-qabıqdan" çıxır, hətta külli miqdarda borca da düşürlər. Toy məclislərində yaşanan israfçılıq haqda da dəfələrlə söz açılıb, deyilib, yazılıb, lakin hələ ki bu lüzumsuz dəbdəbənin qarşısı alınmır.**

Avropa ölkələrində təşkil edilən toy məclisləri bizimlə müqayisədə təxminən 7-8 dəfə ucuz başa gəlir. Uzağa getməyək, elə götürək qardaş Türkiyəni. Toya demək olar ki, ən yaxın qohumlar, dostlar dəvət olunur, menyuda isə yalnız çay süfrəsi, meyvə, çərəz olur, spirtli içkiləri isə çox az halda görmək olur. Bəy və gəlinə qonaqlar tərəfindən qızıl və digər hədiyyələr verilir ki, bu da əsasən gənc ailəyə kömək məqsədi daşıyır.

Hazırda ölkəmizdə iqtisadi böhran yaşanır. Bəlkə də bu amil bizdə də toyların sadə keçirilməsinə vəsilə ola biləcək. Artıq bu yöndə "qığılcımlar" görünməyə başlayıb. Belə ki, qızılın qiymətinin bahalaşması toya hazırlaşan bir çox gənclərin qızıldan imtina etməsinə səbəb olub. Bəziləri isə mentalitetə qarşı gələrək xınayaxdı məclisini, qız toylarını ixtisara salaraq, dəbdəbəli toya deyil, sadə məclislərə üstünlük vermək istəklərini bildirirlər.

Bəs görəsən, tanınmış subay gənclər gələcəkdə bu cür toy etməyi düşünürmü? Gənclərin sadə toy keçirmək üçün hansı maraqlı ideyaları var?

**Şair Şəhriyar Del Gerani suallarımızı yarızarafat, yarıciddi bu cür cavablandırdı:** "Şəxsən mən gəlindən başqa toyumda heç kimi görmək istəməzdim. Toy dediyimiz gəlin və iki şüşə çaxırdır.

Gənclər toylarını böyük şadlıq evlərində keçirməkdənsə, öz evlərində təşkil etsələr daha yaxşı olar".

**"AG blok"un təsisçilərindən olan Tural Abbaslı da toyların şadlıq evlərində keçirilməsinin əleyhinə olduğunu bildirib:** "Hər kəs öz qapısında toy etsə, daha yaxşı, daha maraqlı olar. El arasında da "Qapından toy səsi gəlsin" deyirlər, yəni evində toy çalınsın. Lakin müəyyən səbəblərdən Bakı şəhərində bu, o qədər də mümkün deyil.



**Şəhriyar Del Gerani:** "Gəlindən başqa toyumda heç kimi görmək istəməzdim"



**Tural Abbaslı:** "Hər kəs öz qapısında toy etsə, daha maraqlı olar"

Ümumiyyətlə, toy adət-ənənələrimiz xeyli deformasiyaya uğrayıb. Təəssüf ki, əksər hallarda gənclər ictimai qınaqdan çəkindikləri üçün yeni bayağı adətlərə tabe olmaq məcburiyyətində qalır. Keçirilən toy mərasimləri demək olar ki, yalnız şadlıq evləri sahiblərinin cibinə xidmət edir".

**Tural Abbaslı gələcəkdə adət-ənənələrə uyğun toy məclisi keçirmək niyyətində olduğunu deyib:**

"Əgər bu baş tutarsa, toyuma öz şad günümü bölüşmək istədiyim insanları dəvət etməyi düşünürəm. İstərdim ki, bu mərasim özümün dünyagörüşüm və yaşam tərzimə uyğun, adət-ənənələrə uyğun təşkil olunsun. Gördüyüm qədər toy mərasimlərinin keçirilməsində daha çox qız tərəfi diktə edir. Beləliklə, oğlan tərəfi xeyli çətinliklərlə üzləşir. Fikrimcə, qarşılıqlı anlaşma sayəsində sadə toy mərasimi təşkil olunsa, daha gözəl olar".

Qeyd edək ki, bir neçə il bundan əvvəl Azərbaycan Milli Kulinariya Mərkəzinin direktoru Tahir Əmiraslanov bu cür nümunə təqdim etmişdi. Baş kulinar övladlarının toy məclisini çox sadə və heç bir israfçılığa yol vermədən təşkil etmişdi. Dəvət olunan qonaqlar menyuya baxıb istədiyi içki və ya yeməyi sifariş edə biliblər. Ənənəvi toylarımızdan fərqli olaraq ilk olaraq süfrəyə plov verilib. Toyda fişəngdən, tüstüdən, od-alovdan istifadə olunmayıb. Səslənən musiqilər isə tələb olunan səviyyədə, qulaqbatırıcı olmayıb.

**Təəssüf ki, bu nümunə ilk əvvəl ictimaiyyətdə maraq doğursa da, sonralar onu davam edən tapılmadı...**

❑ **Xalidə GƏRAY**

# "Balayanın başını "Ocağ"ın külünün içinə soxmaq lazımdır"

## Cani Zori Balayanın "Ocaq" kitabını Moskvada nəşr etməsinə reaksiyalar...


Zori Balayan

**Azərbaycana qarşı cinayətləri, Qarabağdakı qızışdırıcılıq mövqeyi ilə bizlərə yaxşı tanış olan erməni yazıçı Zori Balayan fevralın 10-da 81 yaşını qeyd edib. Azərbaycanın Xankəndi şəhərində anadan olan Balayan 80-ci illərin sonunda Dağlıq Qarabağda başlayan etnik qarşıdurmaları öz əsərləri ilə qızışdıran millətçi ideoloq kimi də tanınır.**

Modern.az saytı Ermənistan KİV-nə istinadən xəbər verir ki, vaxtilə Azərbaycanın İnterpol xətti ilə axtarışa verdiyi Balayan bir neçə gün öncə Moskvada 8 cildlik əsərlər toplusunun təqdimatını keçirib. Maraqlıdır ki, tədbir şəhərin İncəsənət İşçiləri Sarayında keçirilib. Rusiya Yazıçılar Birliyi, Rusiya Jurnalistlər Birliyi, "Literaturnaya Qazeta" və "Bədii Ədəbiyyat" federal nəşriyyat evinin təşkilatçılığı ilə baş tutan mərasimdə Balayanın karyerası ərzində yazdığı məqalələr, reportajlar, o cümlədən bədnam "Ocaq" əsərinin daxil olduğu kitablar təqdim edilib.

Məlumdur ki, "Ocaq" bütövlükdə Azərbaycan əleyhinə yönəlib. 1980-ci illərin əvvəllərində yazılan bu cızmaqara bir il sonra kitab şəklində nəşr olunub. Kitabda Zori Balayan tarixi təhrif edərək, Qarabağın və Naxçıvanın qədim erməni torpağı olduğunu iddia edib. Həmçinin kitabda o, türkləri və azərbaycanlıları həm Rusiyanın, həm də Ermənistanın düşməni elan edib.

Xatırladaq ki, 1985-ci ilin yanvarında AMEA Şərqşünaslıq İnstitutunda elmi işçi vəzifəsində çalışan İsa Qəmbər Zori Balayanın "Ocaq" kitabına "Köhnə bayatılar, yeni əfsanələr" adlı cavab kitabı yazmışdı. Üstündən on illər keçəndən sonra Balayanın yenidən bu kitabı dövriyyəyə buraxması, özü də bu fəaliyyətini ATƏT-in Minsk Qrupunun həmsədri olan ölkədə davam etdirməsi suallar doğurur.

Qeyd edək ki, qatil yazıçının ad günü mərasimində Rusiya və Ermənistanın tanınmış ictimai-siyasi və ədəbiyyat xadimləri iştirak ediblər. Onu da xatırladaq ki, Z.Balayan 1999-cu ildə Azərbaycan Baş Prokurorluğu tərəfindən İnterpol xətti ilə beynəlxalq axtarışa verilmişdi. O, 1994-cü il iyulun 3-də Bakı metrosunun "28 May" və "Gənclik" stansiyaları arasında baş verən partlayışın təşkilatçısı kimi tanınırdı. Həmin terror aktı zamanı 13 nəfər həlak olmuş, 42 nəfər isə xəsarət almışdı. 2001-ci ildə İnterpol Azərbaycanın müraciətində siyasi motivlərin üstünlük təşkil etməsi səbəbindən Balayanın adını axtarış siyahısından çıxarıb. 2005-ci ildə İtaliyanın Brandizi şəhərində saxlanılan erməni yazıçısı 5 saat davam edən dindirilmədən sonra sərbəst buraxılmışdı.

Bəs rəsmi Bakının bununla bağlı Moskvaya etirazı olacaqmı? XİN-dən qəzetimizə dedilər ki, məsələni araşdırandan sonra bu barədə hansısa mövqe bildirə bilərlər.

Rusiyada yaşayan azərbaycanlı ziyalılar necə, bununla əlaqədar adekvat addım atmaq, yaxud Balayana meydan verənlərə etiraz bildirmək niyyətindədirmi? Kinorejissor Rüstəm İbrahimov "Yeni Müsavat"ın əməkdaşının bununla bağlı sualını dinləyən kimi "bağışlayın, mən danışa bilmirəm" deyib telefonu qapatdı.

**Bugünlərdə Moskvada olmuş professor Cəmil Həsənli isə bildirdi ki, məsələdən onun da xəbəri var:** "Bugünlərdə Zori Balayanın Moskvada 8 cildliyi nəşr olunub və 8 cildliyə "Ocaq" da daxildir. Bununçün biz gərək məsələni hərtərəfli öyrənək, oxuyaq. Mən gözümlə görməmişəm ki, onun içərisində nələr var. Ancaq mən də eşitdim ki, belə bir şey çıxıb. Ondan başqa, Dağlıq Qarabağ haqqında 900 səhifəlik kitab buraxıblar. Biz gərək hamısını oxuyaq, ondan sonra şərh verək ki, nəyi necə etmək lazımdır. Birinci tanış olmaq lazımdır ki, orda nədən söhbət gedir, ondan sonra bu barədə konkret fikir bildirəsən. Yəni mən nəyinsə qarasına danışmağın əleyhinəyəm".

**Deputat Fazil Mustafanın isə reaksiyası orijinal oldu. Bildirdi ki, hər il Moskvada erməni müəlliflərin minlərlə kitabı çıxır, ona görə də hansısa kitabın nəşrinə xüsusi diqqət ayırmağa zərurət yoxdur:** "Nəşr olunan kitaba ən böyük reaksiya o ocağı söndürmək olardı. Sonra da Balayanın başını öldürdüyü azərbaycanlıların sayı qədər həmin ocağın külünün içinə soxmaq lazımdır. Çıxış yolu budur, başqa nə edəsən?"

Məsələ ilə əlaqədar Rusiyadakı səfirimiz Polad Bülbüloğlu ilə danışmaq istəsək də, onun görüşdə olduğunu dedilər.

❑ E.PAŞASOY

**"Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğan bugünlərdə ABŞ-ın ünvanına sərt tənqidlər söylədi, bildirdi ki, Suriya kürdlərinə verilən Amerika dəstəyi bölgədə qanın çay kimi axmasına səbəb oldu. Bundan qabaq Moskva, indi isə Vaşinqtonla mübahisələri yaranan Ərdoğan getdikcə daha tez-tez etnik yaxınlığı olan Azərbaycan tərəfə boylanmaqdadır". Bu barədə Rusiyanın nüfuzlu internet-nəşri olan gazeta.ru yazıb.**

# Nüfuzlu Rusiya nəşrindən ilginc iddia: "Moskva Bakını itirir..."

## "Azərbaycan gec-tez Moskva ilə Ankara arasında seçim etməli olacaq"; **moskvalı ekspert:** "Qərb istənilən halda Azərbaycanı Rusiyadan qoparmağa çalışacaq..."




**"Lap yaxınlaradək iki od arasında balansı qoruyan Bakı son hadisələrdən sonra çətin seçim qarşısındadır"**

Məqalə müəlliflərinə görə, Bakı Suriya münaqişəsində getdikcə daha nəzərəçarpan rol oynayır və gec-tez o, Moskva ilə Ankara arasında seçim etməli olacaq: "Az öncə Səudiyyə Ərəbistanı Azərbaycana İŞİD-ə qarşı yeni "İslam koalisiyası"na qoşulmağı təklif edib. Bu yaxınlarda isə İlham Əliyev Londona gedib və orada "Suriyaya və regiona kömək" konfransına qatılıb. Bundan əlavə, fevralın 18-də Ərdoğanın Bakıya səfəri nəzərdə tutulub. Sahə ekspertlərini bununla bağlı belə sual qayğılandırır - Türkiyə prezidentinin qarşıdakı səfəri yalnız ikitərəfli əlaqələrlə bağlıdır, yoxsa səfərin arxasında Ankara-Moskva ziddiyyətləri və Suriya böhranında oyunçuların qlobal maraqlarından formalaşan mürəkkəb "bekqraund" dayanır? Hər nə olur-olsun, Bakının Suriya qıfına daxil edilməsi belə bir sual haqda düşünməyə vadar edir: Rusiya Azərbaycanı itirir?"

**Nəşr daha sonra qeyd edir:** "Azərbaycan hələ ki nə Qərbin, nə də Rusiya və Səudiyyə Ərəbistanının başçılıq etdiyi koalisiyalara qoşulub. Qoşulmamağın məntiqi isə həm obyektiv səbəblər, həm də siyasi amillə bağlıdır: birincisi, güclənən sosial-iqtisadi böhran, habelə son vaxtlar həyəcanlı meyllərin özünü göstərdiyi, həll olunmamış Qarabağ məsələsi fonunda Azərbaycanın üstəlik, Yaxın Şərq böhranına cəlb olunması istər ölkə iqtisadiyyatına, istərsə də sosial ab-havaya öldürücü təsir edərdi - Qarabağ fitilinin çəkilməsi mümkünlüyü də öz yerində.

İkincisi, Ankara və Moskvanın qarşıdurması dövründə Azərbaycan üçün seçim etmək çox çətindir. Səudiyyə Ərəbistanının yaratdığı və Türkiyənin də daxil olduğu koalisiyaya qoşulmaqla Bakı şimal qonşusu ilə münasibətləri güclü şəkildə korlaya bilər. Eyni prinsip əks istiqamətdə işləkdir: Azərbaycan bir çox məsələlərdə Rusiya ilə əməkdaşlıq etməklə Moskvanın və Tehranın yaratdığı koalisiyalara daxil olmağa razılaşa bilməz, nədən ki, bu, nəinki Türkiyə ilə əlaqələrə xələl gətirər, eyni zamanda Qərbdə çoxlu izafi suallar doğurardı. Lap yaxınlaradək iki od arasında balansı qorumaq Bakıya müyəssər olub. Ancaq son hadisələr öz zəruri düzəlişlərini edib və belə görünür, Azərbaycan çətin seçim etməli olacaq".

**Məqalədə ardınca iddia olunur ki, Səudiyyə Ərəbistanı və Türkiyə Suriyaya quru qoşunları yeritməyə hazırlaşır və bu plan Pentaqonun da müsbət rəyini alıb:** "Rusiyada isə bu, açıq-aşkar neqativ qarşılanır. Ancaq bu plan baş tutsa, o zaman biz Yaxın Şərqdə lokal yox, Güney Qafqaz və Xəzərsahili region ölkələrinin, bir çox başqalarının da cəlb olunduğu qlobal müharibənin şahid olacağıq. O halda dünya müharibələri tarixindəki ən yaxşı ənənələr üzrə oyunçular müxtəlif koalisiyalara səpələnəcək. Belə görünür, Londonda İlham Əliyevlə məhz Azərbaycanın Suriya məsələsində potensial rolu müzakirə olunub, hansı rolun ki, əsas tərkib hissəsini bu sual təşkil edib - Bakı kimin komandasına qoşulacaq?"

**Məqalədə daha sonra Bakı üçün seçimin böyük olmadığı vurğulanır:** "Seçim böyük deyil. Bir yandan Rusiya və İran, digər yandan, köhnə müttəfiq Türkiyə və öz kapitalı ilə Qərb dünyası - hansı ki, ucuzlaşan neft fonunda Bakıya xüsusilə lazımdır. Avropa Birliyinin Azərbaycanı öz komandasına niyə çəkmək istədiyi aydındır. Bakı təkcə Avropa bazarları üçün potensial qaz tədarükçüsü deyil (hərçənd bu məsələ indi ikinci planda-dır), həm də o, Ankaranın strateji tərəfdaşı olmaqla AB tərəfindən Türkiyədən ayrılmaz şəkildə nəzərdən keçirilir. Əgər Ankara Suriyada geniş miqyaslı əməliyyatlara hazırlaşırsa, o zaman aydındır ki, hətta ilkin məsləhətləşmələrsiz-filansız Azərbaycan artıq kənarda qala bilməyəcək. Deməli, praqmatik avropalılar Londonda Əliyevə, sadəcə, işarə vurublar ki, seçim etmək lazımdır".

***

**Mövzunu portala şərh edən tanınmış rusiyalı politoloq Qriqori Trofimçuk hesab edir ki, Londonda Azərbaycan silahlı qüvvələrini Suriyaya yeritmək çağırışı edilib:** "Amma koalisiyalardan birinə, özü də "doğru" koalisiyaya qoşulmaq təklifi yeqin ki, olub. Mümkündür ki, Bakıya hansısa təchizatla bağlı təkliflər edilib. Ancaq hətta bu təkliflər də çox yumşaq və nəzakətli formada edilib. İstisna deyil ki, söhbət elə təchizatla bağlı təklifdən gedir - hansından ki, imtina qeyri-mümkündür".

**Politoloqun sözlərinə görə, Qərb istənilən halda Azərbaycanı siyasi, iqtisadi planda Rusiya ilə təmaslardan qoparmağa çalışacaq. Azərbaycanın özünün birbaşa maraqlarına gəlincə, ekspert qeyd edib ki, Bakı izolyasiyada qalmağa hazırlaşmır:** "London dövətini qəbul etmək isə bir neçə amillə izah oluna bilər: ölkədəki sadə olmayan iqtisadi situasiya, sosial gərginliyin artması və etnik məsələnin kəskinləşmə perspektivləri".

**"Bəs Moskva Bakını itirirmi" sualına ekspertin cavabı belə olub:** "Hələlik belə demək olmaz. Ancaq biz başa düşürük ki, Rusiya hadisələrin inkişafını hansısa formada öz xeyrinə dəyişmək üçün zəruri rıçaqları, ilk növbədə də intellektual rıçaqları çətin ki, tapsın. Ukrayna istiqamətində 2013-cü ildən etibarən yol verilən çox ağır, taleyüklü səhvlər dəsti ortada ola-ola əlbəttə ki, belə bir qənaətə gəlmək olar ki, tendensiyanı dəyişməyə cəhdlər ediləcək, ancaq nəticələr çətin ki, Rusiya üçün pozitiv olsun".

**"Əgər Türkiyə Suriyada genişmiqyaslı əməliyyatlara başlasa, Azərbaycan kənarda qala bilməyəcək. Praqmatik avropalılar Londonda Əliyevə işarə vurublar ki, seçim etmək lazımdır"**

❑ Siyasət şöbəsi

YENİ MÜSAVAT
N 33 (6354) 12 fevral 2016

# Sabiq təhsil naziri ilə həbsdəki məmuru nə birləşdirir?

**Ötən ilin noyabr ayında rabitə və yüksək texnologiyalar naziri vəzifəsindən azad olunan Əli Abbasov yenidən medianın gündəminə gəlib. Ayyarım susqunluqdan sonra ötən ayın sonunda mediaya qısa açıqlama verən sabiq nazir, nazirliyin keçmiş aparat rəhbəri Vidadi Zeynalovu şantajda suçlamış, həbsdəki yaxın adamının "oranın naziri mən deyiləm ki, bütün məsuliyyət mənim üzərimdə olsun", - mesajına ciddi təpki göstərmişdi.**



# Misir Mərdanovun adı şok yeyinti ittihamında

## Rabitə və Yüksək Texnologiyalar Nazirliyində həbs edilənlər onların vaxtilə iqtidardakı himayədarlarını hədəfə gətirib; Vidadi Zeynalovu vəzifəyə gətirən o zamankı təhsil naziri Misir Mərdanov, deyəsən, təkcə Əli Abbasovu deyil, özünü də cəncələ salıb

"Mən çox təəssüf edirəm ki, Vidadi Zeynalov belə bir fikir səsləndirib. Ondan belə bir şey gözləmirdim", deyən Ə.Abbasovun narahat olması üçün ciddi əsasları var. Artıq bir neçə aydır ki, Baş Prokuror yanında Korrupsiyaya Qarşı Mübarizə Baş İdarəsi, eləcə də Vergilər Nazirliyi RYTN-də yoxlamalar aparır. Aşkarlanmış korrupsiya faktları ilə bağlı Baş Prokurorluqda bir neçə cinayət işi artıq yekunlaşmaq üzrədir.

Yeri gəlmişkən, unikal.org Ə.Abbasovun Goradildəki bağ evindən 1 milyon manat pul oğurlanması haqda sensasion xəbər yayıb. Xəbərdə deyilir ki, hadisə ilə bağlı araşdırma MTN tərəfindən aparılıb və oğrular saxlanılıb. Həmin vaxt Əli Abbasov oğrulara pulun bir qismini qaytarmaq şərtiylə azadlığa buraxılmalarına şərait yaradacağını təklif edib. Amma oğrular bu təklifdən imtina ediblər və hazırda da cəzaçəkmə müəssisələrindədirlər. Görünür, Ə.Abbasov o vaxt bu cinayəti gizli saxlamaqla "təmiz reputasiyasının" qayğısına qalıb.

Prezident İlham Əliyev yanvarın 10-da Nazirlər Kabinetinin toplantısında RYTN-də baş verən korrupsiya faktlarından danışarkən "yoxlamalar göstərir ki, dövlətin ayırdığı vəsaitdən vicdansızlıqla istifadə olunub. Burada israfçılıqdan söhbət getmir, burada böyük cinayətdən söhbət gedir. Bu, cinayətdir, vicdansızlıqdır, dövlətə xəyanətdir" deyib.

"Yeni Müsavat" Əli Abbasovun ev dustağı edildiyi və Baş Prokuror yanında Korrupsiyaya Qarşı Mübarizə Baş İdarəsinin müstəntiqləri tərəfindən bir neçə dəfə dindirilməsi ilə bağlı əvvəllər də məlumat yayıb. Ə.Abbasov istintaq dövründə özünü həbsdən qoruya bilib, amma məlumatlara görə, fevralın sonu-martın əvvəlində başlayacaq məhkəmə prosesi sabiq naziri ciddi təlaşlandırıb.

Hüquq-mühafizə orqanlarına yaxın mənbəmiz deyib ki, sabiq nazir "səhhəti ilə bağlı" iki dəfə rəsmi müraciət edərək, xaricə getmək üçün izn istəyib. Amma ona deyilib ki, barəsində ölkədən çıxmamaq yasağı var. Çünki bütün iri mənimsəmə faktlarında sabiq nazirin imzası və ya razılığı var ki, bu da istintaqa məlumdur.

Xatırladaq ki, Vidadi Zeynalovdan başqa Beynəlxalq Əlaqələr və Hesablaşmalar Mərkəzinin direktoru Cəlil Cəfərov, "Bakı Telefon Rabitəsi" İstehsalat Birliyinin baş direktoru Beytulla Hüseynov, "Aztelekom" MMC-nin baş direktoru Məmməd Məmmədov və daha bir neçə nəfər həbsdədir. Onlar Cinayət Məcəlləsinin 179.3.2 (külli miqdarda mənimsəmə), 308.2 (vəzifə səlahiyyətlərindən sui-istifadə) və 313-cü (vəzifə saxtakarlığı) maddələri ilə ittiham olunurlar.

Vidadi Zeynalovun və digərlərinin Ə.Abbasovu "top ağzına" verməsi onların vaxtilə iqtidardakı himayədarlarını da hədəfə gətirib. Onlardan biri də sabiq təhsil naziri Misir Mərdanovdur. "Yeni Müsavat" hələ bir müddət əvvəl yazmışdı ki, V.Zeynalov əslində Ə. Abbasovun deyil, Misir Mərdanovun kadrıdır. Belə ki, Əli Abbasov İqtisad Universitetinin rektoru olanda prorektor vəzifəsinə Vidadi Zeynalovu məhz o zaman təhsil naziri işləyən M.Mərdanov təyin edib. Məlumata görə, bu təyinata qədər V.Zeynalov işsiz imiş. Əli Abbasov nazir getdikdən sonra M.Mərdanov Vidadi Zeynalovun bu dəfə aparat rəhbəri postuna təyin edilməsinə nail olub. Sonra isə o da M.Mərdanova yaxşılığının əvəzini ödəməyə çalışıb. Nazirin qardaşı İlham Mərdanovu özünə müavin təyin etdirib. V.Zeynalovun "sağ əli" kimi tanınan İ.Mərdanov bir aya yaxındır işdən çıxarılıb və onun da istintaqa cəlb olunduğu və bir neçə dəfə Korrupsiyaya Qarşı Mübarizə İdarəsində dindirildiyi deyilir.

**V.Zeynalovun M.Mərdanovun kadrı olmasını yenidən gündəmə gətirən moderator.az saytı sensasion bir xəbərə yer verib. "Misir Mərdanov Vidadi Zeynalovu Əli Abbasovun yanına pərçim etməklə əslində çox böyük qəbahət etdiyini etiraf etməyə məhkumdur. Kimsəyə pislik etmək əlindən gəlməyən Əli Abbasovun üzləşdiyi bu aqibətə görə o da günahkardır..." , - yazan sayt sabiq təhsil nazirinin həbsdəki aparat rəhbəri ilə sensasion maliyyə maxinasiyasına toxunub:** "Bir neçə il öncə prezident İlham Əliyevin sərəncamı ilə ölkənin ümumtəhsil məktəblərinin informasiya texnologiyaları ilə təminatı üçün sərəncamla ayırdığı 30 milyon manat vəsaitin də "şəffaf şəkildə, qəpiyinəcən təyinatı üzrə xərclənməsi"nə də o, vaxtkı təhsil naziri Misir Mərdanovla Vidadi Zeynalov rəhbərlik ediblər".

Şübhəsiz ki, V.Zeynalova açılmış cinayət işində bu epizod da yer alır. Çünki söhbət 30 milyon manatdan gedir ki, bunun istintaqın nəzərindən yayınması inandırıcı deyil. Üstəlik, bu iş birbaşa prezidentin nəzarəti altındadır.

1998-ci ildən 2013-cü ilin aprelinədək təhsil naziri postunu tutan M.Mərdanov təhsil sahəsində acınacaqlı vəziyyətə görə ən çox tənqid olunan məmurlardan biri idi. Hazırda MEA-nın Riyaziyyat İnstitutuna rəhbərlik edən M.Mərdanovun adının qardaşının RYTN-dən işdən çıxarılmasından sonra "yeyinti" ittihamı ilə gündəmə gəlməsi maraq doğurur.

**Olmaya V.Zeynalov onu da istintaqda ələ verib?...**

❑ "Yeni Müsavat"

# Bölgə müxalifətini nazirlərlə görüşlərə buraxmırlar

**Həbibulla Manaflı:** "Əhali küçə süpürmək işinə dəvət edilib"
**Oqtay Zeynallı:** "Kim ki, sualları ilə nazirləri pis vəziyyətə sala bilər, o adamları zala buraxmırlar"
**Şahin Ələkbərov:** "Gəlib yalançı vədlər verirlər"

**Prezident İlham Əliyev dövlət rəsmiləri ilə keçirdiyi görüşdə məmurları vəzifə səlahiyyətlərindən sui-istifadə etməməyə və xalqa xidmət etməyə çağırıb. Ölkə başçısı bu tələblərə riayət etməyən vəzifə sahiblərinin cəzalandırılacağını bildirib. Prezidentin bu tapşırığından sonra yüksək vəzifəli məmurlar rayonlara səfərlərə başlayıb. Vəzifəli məmurların bölgələrə səfəri əhalinin problemlərini öyrənmək, işsizlik problemini qismən həll etmək məqsədi daşıyır.**

Maraqlıdır, bəs onların bu səfərləri hansısa fayda verirmi, yoxsa bu görüşlər sadəcə görüntü xatirinə keçirilir?

Bu suallara cavab tapmaq üçün Müsavat Partiyasının bir neçə rayon şöbəsi ilə əlaqə saxladıq. **Müsavat Partiyasının Şəki rayon təşkilatının sədri Həbibulla Manaflı** bu cür görüşlərin görüntü xatirinə keçirildiyini düşünür: "Şəkiyə görüş üçün baş nazirin müavini Abid Şərifov gəlmişdi. O, yerli müəssisələrin açılması, ənənəvi təsərrüfat sahələrinin, yəni tütün, ipək və digər sahələrin dirçəldilməsi ilə bağlı söhbət edib. Əhalini işə cəlb etmək üçün idarə, müəssisə və təşkilatlara göstərişlər verilib. Amma insanların bir çoxu həmin görüşdən razı qalmayıb. Təklif olunan işlər müvəqqəti, mövsümü xarakterli və az maaşı olan işlər olub. Kommunal Təsərrüfat İdarəsi əhalini küçə süpürməyə dəvət edib və 120-130 manat da maaş vəd edib. Təbii ki, bu görüşlərin uğurla nəticələnməsi mümkün deyil. Çünki o deyilən, göstərilən məsələlərin həlli üçün ilkin əsaslar yoxdur. Barmaq silkələməklə, hədə-qorxu gəlməklə iş yerləri açmaq, iqtisadiyyatı dirçəltmək mümkün deyil. İqtisadiyyatı dirçəltmək üçün qeyri-neft sektoruna diqqət yetirilməli, azad sahibkarlığın inkişafına təminat yaradılmalı və monopoliyanın qarşısı alınmalıdır. Həmçinin bağlanmış iş yerlərinin açılması üçün əməli addımlar atılmalıdır. Bu işlərin də heç biri hələ ki görülmür".



**Müsavat Partiyasının Gəncə şəhər təşkilatının sədri Oqtay Zeynallı bildirdi ki, iş vermək adı ilə insanları təhqir edirlər:** "Gəncədə keçirilən görüşlərdən heç xəbərimiz də olmur. Çünki bizi dəvət etmirlər. 3-4 gün əvvəl keçirilən görüşdə qadınları təhqir etdilər və bununla bağlı qalmaqal oldu. Hətta xəbər çıxıb ki, Gəncədə olan müxalifətçilər guya Gədəbəy camaatına məlumat verib ki, şəhərdə əmək yarmarkası keçirilir, gəlin işə düzəlin. Amma bizim bu əmək yarmarkasından heç xəbərimiz də olmayıb. İki ay əvvəl qaz idarəsində işləyən 100 nəfərdən artıq adamı ixtisara salıb, işdən kənarlaşdırıblar. Bakıdan gələn iri məmurlar da təkcə 30-40 nəfəri qaz idarəsinə işə göndərib. Qaz idarəsi də bu adamları geri qaytarıb ki, biz ixtisarlar edirik, bu sənədi sizə kim verib ki, burada iş var? Qaz idarəsində iş yoxdur. Gəncədə qankönçürmə mərkəzi var. Orada cəmi 3-4 nəfər işləyir. Deyilənə görə, orada 11 nəfər üçün boş iş yeri var və insanları ora göndəriblər. Prezidentin verdiyi 10 faiz təqaüd artımı təxminən 1 kilo və ya kilo yarım ətin qiymətidir, o da fevral ayından veriləcək. Bütün bunlar ayrı-ayrı regionlarda xalqın dolanışıqla bağlı başladığı aksiyaları sakitləşdirmək üçündür. İdman naziri gedib xalqın nə dərdinə qalacaq?! Rayonların hamısına gedib görüş keçirirlər və bu görüşə də lazımi adamları buraxırlar. Kim ki, mübarizdir, sualları ilə nazirləri pis vəziyyətə sala bilər, o adamları zala buraxmırlar".

**Müsavat Partiyasının Gədəbəy rayon təşkilatının sədri Şahin Ələkbərov məmurların yalançı vədlər verdiyini dedi:** "Gədəbəyə gənclər və idman naziri Azad Rəhimov gəlmişdi. Gəlib Gədəbəydə görüş keçirdi və bütün əhali də bu görüşə axışdı. Gədəbəydə Kommunal Müəssisələri Kombinatı var. 200 nəfəri ora işə göndərdilər. Bu 200 adam gedib görüb ki, orada heç bir iş yoxdur. Deyiblər ki, guya qaz idarəsində iş olacaq. Vəd veriblər ki, iş olacaq və ayda 120-130 manat da maaş verəcəklər. O da tikinti olsa... Hələ ki tikinti işləri də yoxdur. Maliyyə şöbəsindən də deyirlər ki, tikinti üçün pul ayrılmayıb. Biabırçı vəziyyətdir. Sadəcə olaraq, gəlib yalançı vədlər verirlər. Amma faktiki olaraq reallıqda heç nə yoxdur. Görüntü yaradırlar. Müxalifət olaraq da bizim heç birimiz bu görüşlərdə iştirak etmirik".

❑ Günel MANAFLI

**Vətəndaş Həmrəyliyi Partiyasının sədri, keçmiş deputat Sabir Rüstəmxanlının sərt açıqlamalarla çıxış etməsi, son vaxtlar tənqidlərində bir qədər də radikallıq müşahidə olunması bəzi şəxslər tərəfindən birmənalı qarşılanmayıb. Bəzi jurnalistlər VHP sədrini tənqid edərək sosial şəbəkədə yazıblar ki, Sabir Rüstəmxanlı deputat mandatı ala bilmədiyi üçün müxalifətçilik edir, Milli Məclis üzvü olduğu vaxtlarda müxalifətçilik etmirdi.**

# Sabir Rüstəmxanlı radikallaşmasının səbəbini açıqladı

## "Bu gün vəziyyət daha ağırdır və ona görə məcburam ki..."

**S.Rüstəmxanlı isə onu hədəfə alan adamların əsassız danışdığını bildirir:** "Mən heç vaxt sifətimi dəyişməmişəm. İndi dediyim sözləri parlamentdə də demişəm, Milli Məclisə getməyəndə də deyirəm. Bəlkə də onlar elə bilirlər mən birinci dəfədir bu sözləri deyirəm? Onlar fil qulağında yatıblar və heç nədən xəbərləri yoxdur, elə bilirlər ki, mən birinci dəfədir belə danışıram. Milli Məclisdə 25 il daim öz mövqeyi olan bir adam olmuşam və daima da öz mövqeyimdən çıxış etmişəm, həmişə millətin dərdini demişəm. İndi də eyni fikri deyirəm, amma bu gün vəziyyət daha ağırdır və ona görə məcburam ki, bəzi məsələləri daha kəskin deyim. Milli Məclisdə olsaydım da, yenə eyni sözü deyəcəkdim".


Sabir Rüstəmxanlı

**Qeyd edək ki, S.Rüstəmxanlı son günlər müsahibələrində hakimiyyətin seçki siyasətini, idarəçiliyi sərt tənqid edib. O bildirib ki, bütün hallarda, məclisə deputat seçkisi siyasəti doğru deyil, seçki yoxdur, təyinat var:** "Mən özüm də, o sistemdən kənarda qalmamışam ki, razılıq olub ki, seçilmişəm. Razılıq olmasaydı seçilə bilməzdim axı. Necə ki, indi razılıq olmadı deyə, seçkiyə də getmədim. İndiki seçki siyasəti Azərbaycanın ən böyük bəlalarından biridir. Axı niyə normal, demokratik və şəffaf seçki olmasın? Onsuz da kim seçilirsə seçilsin, Azərbaycanın müstəqilliyini istəyəcək, dövləti qorumağa çalışacaq. Sadəcə, hamısı prezidentin siyasətini dəstəkləməyə, ya da hökumətin fəaliyyətini bəyənməyə bilər. Qoy olsun, amma bu nəyi dəyişə bilər ki? Onsuz da indi, o sahələrdə nəyisə dəyişə bilmək üçün Məclis hansısa ciddi səlahiyyətlərə sahib deyil. Ona görə də Məclisə əlavə enerji, mütərəqqi fikir mənbəyi kimi, inkişafa yol açacaq əlavə ideyaların verildiyi bir məkan kimi, qurum kimi baxmaq lazım idi. Orda siyasi plüralizmə, müxtəlif siyasi partiyaların öz ideyalarını ortaya qoymaları üçün şərait yaratmaq lazımdı. Amma o məsələ günü bu gün də həll olunmamış qalmaqdadır və bu, Azərbaycanın sözdə yox, gerçəkdən inkişafı üçün vacibdir. Baxın, indi parlamentdə icra başçılarının nə qədər adamları təmsil olunurlar. Hər icra başçısı gücü çatan yerdən bir-iki adamını irəli verib. Tutaq ki, biri pul qazananını, biri tikinti tikənini, biri qardaşını, biri digər qohumunu Məclisə saldırıb. Belə baxırsan ki, ora Məclis yox, qohum-qardaş yığınağıdır. Belə Məclis olar? Yəni bunlardan başqa kişi yoxdur bu məmləkətdə? Bax, ay əziz qardaşım, axı bir gün soruşarlar ki, niyə bu ölkənin hər şeyi bir qrup adamın əlində olmalıdır, bəs bu millətin özü hardadır. Bu millət və biz də onunla bir yerdə meydanlarda can çürütdük ki, Azərbaycanda normal cəmiyyət qurulsun, xalq seçsin, xalqı onun öz içindən irəli gələn adamlar idarə eləsin..."

Xatırladaq ki, 1990-cı ildən parlamentin üzvü olan S.Rüstəmxanlı 2015-ci ilin parlament seçkilərində namizədliyini verməkdən imtina edib. Onun deputatı olduğu 72 saylı Yardımlı-Masallı dairəsindən hakimiyyət tarixçi alim Musa Qasımlının namizədliyini dəstəkləmişdi.

❑ **E.SEYİDAĞA**

# Həbsdə olan hüquq müdafiəçisinin səhhəti pisləşib

**Ailəsi:** "Biz onun daha pis virusa, xəstəliklərə yoluxacağından çox narahatıq"


Taleh Xasməmmədov

**Həbsdə olan hüquq müdafiəçisi Taleh Xasməmmədovun həyat yoldaşı ondan narahatdır. Fəxriyyə Xasməmmədova deyib ki, həyat yoldaşının səhhətində ciddi problemlər var. O, 17 saylı cəzaçəkmə müəssisəsində həyat yoldaşı ilə sonuncu dəfə yanvarın 3-də görüşüb: «Yoldaşım çox narahat idi. Özünü çox pis hiss edirdi. Ağrıları bir an da olsun ara vermirdi. Başağrısı, belağrısı, sinir ağrılarından çox əziyyət çəkir. Taleh bu ağrıları ilə əlaqədar olaraq müayinə olunduğunu, yaxınlarda müalicə müəssisəsinə göndəriləcəyini bildirdi. Lakin üstündən bir aydan çox keçməsinə baxmayaraq, nədənsə yoldaşımın müalicə müəssisəsinə göndərilməsi üçün razılıq verilməyib».**

O, Ədliyyə Nazirliyinin Penitensiar Xidməti başda olmaqla, aidiyyəti orqanlara Taleh Xasməmmədovun səhhətində yaranmış ciddi problemlə bağlı müraciət edib: «Əgər Taleh vaxtında müalicə olunmazsa, biz onun daha da pis virusa, xəstəliklərə yoluxacağından çox narahatıq. Bu isə bir ailənin başçısını itirməsi deməkdir».

Müraciətdə Beynəlxalq Qırmızı Xaç Komitəsindən, ombudsmandan, İnsan Hüquqları üzrə İşçi Qrupundan, hüquq müdafiəçilərindən Taleh Xasməmmədova baş çəkmələri də xahiş olunur.

Ədliyyə Nazirliyinin Baş Tibb İdarəsinin rəis müavini İftixar Qurbanov isə AzadlıqRadiosuna deyib ki, Taleh Xasməmmədovun ailəsinin müraciətinə baxılaraq araşdırılacaq. Rəis müavini əlavə danışmaq istəməyib.

Taleh Xasməmmədov ötən il iyulun 22-də Göyçay Rayon Məhkəməsinin hökmü ilə 3 il azadlıqdan məhrum edilib. O, xuliqanlıqda ittiham olunurdu.

# Yeni QHT koalisiyası məqsədini açıqladı

## Akif Qurbanov: "Kiminləsə danışıq masasına oturmaq kimi niyyətimiz yoxdur"

**Ölkədə vətəndaş cəmiyyətinin bir qrup nümayəndəsi bir araya gələrək, "Sivil Toplum Platforması" adlı koalisiya yaradıblar. Bu koalisiyada tanınmış jurnalistlər, vəkillər, iqtisadçılar, siyasətçilər də təmsil olunublar.**

Bəs onların bir araya gəlməsində məqsəd nədir?

Yeni yaranmış koalisiyanın sözçüsü Akif Qurbanov "Yeni Müsavat"a açıqlamasında fəaliyyət proqramları və məqsədləri barədə danışıb. O bildirib ki, keçmişə getmədən mövcud gündəmdəki problemləri təhlil edərək, çıxış yollarını göstərəcəklər: "Əsas məqsədimiz cəmiyyətə ilk müraciətimizdə ifadə olunub. Qeyd olunan məqsədlər istiqamətində fəaliyyət proqramlarının hazırlanması nəzərdə tutulub. Ancaq proqrama nələrin daxil olduğunu indidən söyləmək tələskənlik olardı. Çünki hələ bunlar ilkin müzakirə mərhələsindədir. Lakin ümumiyyətlə, məqsədimiz cəmiyyətin, ölkənin əsas problemlərini gündəmə gətirməkdir. Keçmişə getmədən mövcud gündəmdəki problemləri təhlil edərək, çıxış yollarını göstərəcəyik. Bu prosesdə həm əsas problemlərə, həm də cəmiyyətdə gündəlik baş verən hadisələrə vahid mövqeyimizi ifadə edəcəyik. Əslində təşkilatda təmsil olunan şəxslər bu və ya digər formada öz peşələrinə görə cəmiyyətin aparıcı simalarıdır. Təşkilatın yaranmasından öncə də hər kəs öz mövqeyini ifadə edirdi. Sadəcə olaraq, çalışdıq ki, səyləri birləşdirək və cəmiyyətə mesaj verək. Ciddi problemlərlə üzbəüz qalsaq da hesab edirik ki, çıxış yolu tapmaq mümkündür".


Akif Qurbanov

**A.Qurbanov bildirib ki, müzakirələri hökumətlə və siyasi partiyalarla danışıqlar formatında aparmağı düşünmürlər:**

"Burada hökumətin də, siyasi partiyaların da üzərinə düşən məsuliyyətlər olacaq. Hökumət istəyəcəksə, fikirlərimizdən yararlanacaq, istəməyəcəksə, problemi daha da dərinləşdirəcək. Kiminləsə danışıq masasına oturmaq kimi niyyətimiz də yoxdur. Üzvlərə gəlincə isə biz bu məsələni qapatmamışıq. Bizim manifestimiz və əsasnaməmiz var. Qurumun əsasnaməsini qəbul edən və onun manifestində göstərilən düşüncələri bizimlə paylaşan şəxslərin üzvlük məsələsinə baxılacaq. Ancaq bu proses də konsensus əsasında baş tutacaq. Yəni yaradıcıların və köhnə üzvlərin razılığı olacaqsa, yeni üzv aramıza qəbul ediləcək. İndiki durumda bizimlə əməkdaşlıq etmək üçün maraq göstərən şəxslər var. Biz mövzularda açığıq. Səylərin birləşdirilərək, əhatəmizin daha da genişləndirilməsində maraqlıyıq. O şərtlərlə ki, müəyyənləşdirdiyimiz cizgilər pozulmasın. Bizimlə o şəxslərin birlikdə olması mümkündür ki, onun hökumətlə münasibətlərində aydın məsafəsi var. Fəaliyyət və mövqeyində cəmiyyətin problemlərini qabartmaq imkanına malik şəxsdir. Eyni zamanda o, bu mövqeyindən çəkinməyərək cəmiyyətin problemlərini daha üstün tutur".

**A.Qurbanov bildirib ki, yaranmış koalisiyada siyasi kimlik məsələsi də vacib rol oynayır:** "Biz arzu edirik o şəxslər bizimlə bir arada olsunlar ki, həmin şəxslərin hətta siyasi kimliyi olsa belə, quruma siyasi rəng verə biləcək imkanlara sahib olmasınlar. İndi bizim mövcud üzvlər arasında da siyasi kimlikləri olan şəxslər var. Ancaq biz o şəxslərə üstünlük veririk ki, onların cəmiyyətə və ictimai məsələlərə münasibəti siyasi kimliklərindən öndədir".

**Məsələ ilə bağlı koalisiyanın üzvü ekspert Mehman Əliyevin də fikrini aldıq. M. Əliyev bildirdi ki, əsas məqsəd Azərbaycanda mövcud iqtisadi və maliyyə böhranı dövründə bu istiqamət üzrə layihə və təkliflər verməkdir:** "Təkliflər dövlət nümayəndələrinə də təqdim olunacaq. Biz çalışacağıq ki, onlarla da təmas quraq. Ancaq qeyd etdiyim kimi, əsas məqsəd Azərbaycanı böhran şəraitindən çıxarmaqdır. Hazırda bəndlər üzrə konkret müzakirələrə başlayacağıq. Üzvlərdən kimin hansı sənədi hazırlaması ilə bağlı bölgü olacaq. Bundan sonra müvafiq qərarlar ictimaiyyətə açıqlanacaq".

**"Sivil Toplum Platforması"nın digər üzvü jurnalist Əvəz Zeynallı isə bildirdi ki, bu koalisiya hər hansı siyasi məqsədləri qarşısına qoyan təşkilat deyil:**

"Biz, sadəcə olaraq, ölkənin çox önəmli gördüyümüz bəzi problemlərini müzakirə edib, bunu çox geniş müstəvidə cəmiyyətə göstərmək üçün mənəvi səs rolunu oynayacağıq. Hazırda mövzuları müəyyənləşdiririk. Ölkədə özünü müstəqil hesab edən ziyalılar, jurnalistlər, müəyyən düşüncəsi olan ictimai xadimlər bu platformaya qatıla bilərlər. Hazırda bizim üzvlər olaraq açıqladığımız siyahı, platformanın qurucularıdır. Biz təklifdən daha çox çıxış yollarını göstərməyi hədəfləmişik. Hədəfimiz hakimiyyətə hansısa layihələri təqdim etmək deyil".

❑ **Əli RAİS**

# "Parlamentin buraxılmasının böhrana nə dəxli?" ittihamına cavab gəldi

**Ölkə müxalifətinin iqtisadi böhranla bağlı irəli sürdükləri antiböhran proqramları ətrafındakı müzakirələr səngimək bilmir. Parlamentin buraxılması tələblərinin əsasını təşkil etdiyi demokratik düşərgənin təkliflər paketi cəmiyyət tərəfindən birmənalı qarşılanmır. Xüsusilə hakimiyyət tərəfindən antiböhran proqramlarına sərt təpkilər var.**

Müxalifətin təkliflər paketinə münasibətdə cəmiyyət arasında ikitirəlik yaranıb. Təkliflərə müsbət reaksiya verənlər hesab edirlər ki, üç ay öncə keçirilən parlament seçkiləri xalqın iradəsini əks etdirməyib, qanunverici orqanda ölkənin bir yox, bir neçə siyasi qüvvənin təmsilçiləri olmalıdır. Onlar böhrandan çıxış yolunu bunda görürlər. Antiböhran proqramlarına qarşı çıxanların gətirdikləri əsas arqument isə ondan ibarətdir ki, indiki şəraitdə parlamentin buraxılması iqtisadi böhranla yanaşı, siyasi böhranın baş verməsinə səbəb ola bilər. Hər iki tərəfin fikirlərində müəyyən qədər həqiqətlər görünür. Amma müəmmalı olan odur ki, Azərbaycanda yeni parlamentin formalaşmasının siyasi böhranla nə əlaqəsi ola bilər?



**Mehman Əliyev:**
"Parlamentdə ölkənin əksər siyasi qüvvələri təmsil olunduqda problemdən çıxış yolunu tapmaq asanlaşır"



**Elman Fəttah:**
"Yeni parlamentin formalaşdırılması ölkəni çətin durumdan çıxaracaq ən optimal variantdır"

**"Turan" informasiya agentliyinin rəhbəri Mehman Əliyev bildirdi ki, parlamentin buraxılması mütləq şərt deyil:** "Bu, sadəcə, atıla biləcək addımlardan biridir. Gələcək gedişlərə hesablamadır. Əsas məsələ dialoq olmalıdır. Ümumi platforma yaradılmalı, hakimiyyət, müxalifət, müstəqil ekspertlər birlikdə təkliflərini verməlidirlər. Orada artıq "yol xəritəsi" deyilən bir məsələ var. Parlament elə bir yerdir ki, orada müxtəlif qurumların nümayəndələri toplanmalı, ölkənin çətin durumunda bir araya gəlməlidirlər. Burada bir məsələ də tərəflərin məsuliyyəti bölüşməsidir. Bu gün hakimiyyət böhran yaradıb, böhrandan çıxış yollarını tapa bilmir. Başqa qüvvələrlə, xalqla birlikdə iş görmək istəmir. Bu baxımdan parlamentdə ölkənin əksər siyasi qüvvələri təmsil olunmalıdır. Belə olduqda problemdən çıxış yolunu tapmaq asanlaşır. Dialoq, birgə əməkdaşlıq normal təkliflərdir".

**Parlamentin buraxılması təklifi ən çox Müsavat Partiyası tərəfindən səslənir. Qurumun antiböhran proqramının əsas nüvəsini də bu təklif təşkil edir. Müsavat başqanının müavini Elman Fəttah parlamentin buraxılması ilə bağlı təkliflərinə sərt reaksiyaların olmadığı qənaətindədir:** "Bütün siyasi qüvvələr parlamentin buraxılması və yeni qanunverici orqanın formalaşdırılması təklifi ilə çıxış edirlər. Bunun əleyhinə bir təklif yoxdur. Unutmayaq ki, Azərbaycanda iqtisadi böhranın baş verməsinə səbəb siyasi amillərdir. Çox absurd olar ki, kimsə Milli Məclisin buraxılması tələblərinə qarşı çıxsın. Yeni parlamentin formalaşdırılması ölkəni çətin durumdan çıxaracaq ən optimal variantdır. Ölkənin gələcəyi üçün də müsbət keyfiyyətlər verər. Hakimiyyət siyasi islahatları həyata keçirmək istəməsə də, yaxın gələcəkdə buna məcbur olacaq. Ya nəzərdə tutulan islahatlar keçiriləcək, ya da hakimiyyət dəyişikliyi qaçılmaz olacaq. Nəticədə isə hakimiyyətə gələn yeni qüvvələr siyasi islahatları keçirəcəklər. Parlament buraxılmadan böhranın qarşısını almaq mümkünsüzdür. Hakimiyyətin son addımları onu göstərir ki, siyasi islahat keçirməyə meylli deyillər. Sadəcə, iqtidar qəzəblidir ki, neftin qiyməti aşağı düşüb. Çıxış yolunu neftin qiymətinin qalxmasında görürlər. Bütün bunlar onu göstərir ki, hökumət böhrandan çıxa bilməyəcək. Parlamentin buraxılmasından başqa atılacaq hər bir addım böhrandan çıxış yolu olmayacaq".

❑ **Cavanşir ABBASLI**

# Avropa Məhkəməsi hökuməti 83 min 600 avro məbləğində cərimələdi

**Hər iki iş gənc fəalların 2011-ci ildə Bakıda keçirilən etiraz aksiyaları ilə bağlı olub. Fevralın 11-də Avropa Məhkəməsi Azərbaycanla bağlı iki qərarını elan edib. AzadlıqRadiosu Avropa Məhkəməsinin saytına istinadən bildirir ki, hər iki iş gənc fəalların 2011-ci ildə Bakıda keçirilən etiraz aksiyaları ilə bağlı olub. Şikayətdə gəncləri polisin saxlaması və onlara həbs cəzalarının verildiyi deyilir. Gənc fəalları məhkəmədə İntiqam Əliyev, Əshabəli Mustafayev və Ramin Mustafazadə təmsil ediblər.**

«Hüseynli və başqalarının işində» şikayətçilər İlham Hüseynli, Elçin Səlimov və İbrahim Əhmədzadədir. Şikayətçilər martın 31-i və aprelin 2-də Bakıdakı etiraz aksiyalarında iştirak etdiklərinə görə saxlanılıb. Yerli məhkəmələr onların şikayətlərinin heç birini təmin etməyib. Ərizəçilər Avropa Məhkəməsinə şikayətlərində birləşmək (maddə 11), ədalətli məhkəmə araşdırması (maddə 6), azadlıq və toxunulmazlıq (maddə 5) hüquqlarının pozulmasının tanınmasını, dəymiş zərərin kompensasiya edilməsini xahiş etmişdilər. Bu işdə Avropa Məhkəməsi ərizəçilərin birləşmək, ədalətli məhkəmə araşdırması, azadlıq və toxunulmazlıq hüquqlarının pozuntusunu tanıyıb. Məhkəmə qərarına əsasən, hökumət 3 ərizəçinin hər birinə 12 min avro (cəmi 36 min avro), hüquqi məsrəflərə görə isə cəmi 6 min avro ödəməlidir.

İkinci işdə isə şikayətçilər gənc fəallar Ağasif İbrahimov, Emin Fərhadi və Cəmil Hacıyevdir. Onlar 2011-ci ilin mayında İGənc Siyasi Məhbusların Hüquqlarını Müdafiə Komitəsi» adından Bakıda etiraz aksiyası keçirmək istəyiblər. Polis onların planladığı aksiyanı zorla dağıdıb. İnzibati qaydada həbs edilən fəallara vəkilə çıxış imkanı verilməyib. Bu işdə ərizəçilər birləşmək (maddə 11), ədalətli məhkəmə araşdırması (maddə 6), azadlıq və toxunulmazlıq (maddə 5) və ifadə azadlığı (maddə 10) hüquqlarının pozuntusunun tanınmasını, dəymiş zərərə görə təzminat ödənilməsini istəmişdilər.

Avropa Məhkəməsi bu işdə də hesab edib ki, ərizəçilərin birləşmək, ədalətli məhkəmə, azadlıq və toxunulmazlıq hüquqları pozulub. Məhkəmə bu işdə ifadə azadlığı hüququnun pozuntusunu tanımayıb. Məhkəmə qərarına görə, hökumət ərizəçilərin hər birinə 12 min avro (cəmi 36 min avro), hüquqi məsrəflərə görə isə 5 min 600 avro ödəməlidir.

Qərarlar Azərbaycan hökuməti şikayət verməzsə, 3 ay sonra qüvvəyə minəcək.

# Leyla və Arif Yunusun ölkəni tərk etmələrinə icazə verilmədi

## Vəkil məhkəmənin qərarının qanunsuz olduğunu, apelyasiya şikayəti verəcəklərini bildirib

**Yasamal Rayon Məhkəməsi hüquq müdafiəçiləri Leyla Yunus və Arif Yunusun müalicə üçün xaricə getməsinə icazə verməyib. Bu haqda AzadlıqRadiosuna Yunusların vəkili Elçin Sadıqov məlumat verib.**



Vəkilin bildirdiyinə görə, Leyla Yunus xroniki hepatit, arterial hipertenziya və şəkərli diabet xəstəliklərindən əziyyət çəkir. Bundan başqa, öd kisəsindəki daş pankreatit fəsadlarla şiddətli qarın ağrılarına səbəb olur. Bu da xəstənin təcili əməliyyat olunması zərurətini yaradıb. Arif Yunus isə həyati təhlükəli arterial hipertenziya və boyun nahiyəsində ağrılardan əziyyət çəkir. Ekspert rəyinə əsasən, Yunusların yüksək ixtisaslaşmış xəstəxana şəraitində müalicəsinə ehtiyac var.

Barələrindəki məhkəmə hökmü ölkə hüdudlarından kənara çıxmalarına icazə vermədiyindən Yunuslar Yasamal məhkəməsinə ərizə ilə müraciət ediblər. Məhkəmə fevralın 11-də ərizəni rədd edib.

Vəkil məhkəmənin qərarının qanunsuz olduğunu, apelyasiya şikayəti verəcəklərini bildirib.

Leyla Yunus və həyat yoldaşı Arif Yunus dələduzluq, qanunsuz sahibkarlıq, vergidən yayınma və sənədlərin saxtalaşdırılmasında ittiham olunaraq həbs edilmişdilər. Bakı Ağır Cinayətlər Məhkəməsi Leyla Yunusu 8 il 6 ay, Arif Yunusu isə 7 il müddətinə azadlıqdan məhrum etmişdi. Bakı Apelyasiya Məhkəməsi isə Yunusların azadlıqdan məhrumetmə cəzalarını 5 il sınaq müddəti təyin olunmaqla şərti hesab edərək, onları sərbəst buraxmışdı.

Leyla və Arif Yunus ictimai fəaliyyətləri, hökuməti tənqid etdikləri üçün həbs olunduqlarını deyirdilər.

# İflasa aparan siyasətin təkrarlanması



**Xalid KAZIMLI**

**Rus dövləti ətraf dünyaya qarşı bu qədər total aqressiyanı axırıncı dəfə 1979-82-ci illər arasında sərgiləyib. Düzdür, Kreml son yüz ildə heç vaxt fağır-fasiq olmayıb, həmişə yaxın ətrafına diş qıcayıb, caynaq atıb, ancaq 1979-82-ci illər arasında özünü tamamilə dünyaya qarşı qoymuşdu, dünyanı nüvə müharibəsi ilə hədələyirdi.**

Həmin illərdə qırmızı rus imperiyası Əfqanıstana açıq hərbi müdaxilə etmişdi, Türkiyədə yerli kommunistlərin əliylə ölkəni qarışdırmışdı, şahı devirən İran xalqına "kömək etmək" üçün sərhədə qoşun kontingenti səfərbər etmişdi, Cənubi Koreyaya məxsus sərnişin təyyarəsini vurmuşdu, Nikaraquada üsyançı partizanlara dəstək verərək vətəndaş müharibəsini şiddətləndirmişdi, Polşada antisosialist qüvvələrə qarşı repressiya aparılmasını təmin etmişdi. Bundan başqa, Kremlin bir barmağı Laosda, biri Kambocada, o biri Vyetnamda, başqa biri Kubada, Anqoladaydı. Harda bir dövlət çevrilişi, vətəndaş müharibəsi olurdusa, altından mütləq rus barmağı çıxırdı.

O vaxt dünya birliyi bu dövlətin hərbi avantürasının qarşısını almaqdan ötrü sözü bir yerə qoydu, gücünü bir araya topladı, çoxşaxəli sanksiyalarla Kremlin aqressiv siyasətini bir qədər yumşalda bildi. ABŞ başda olmaqla, digər qüdrətli dövlətlərin əfqan mücahidlərini maliyyə və hərbi texnika ilə dəstəkləməsi bu üzdən idi. Rus təhlükəsi o qədər böyük və qorxuducu idi ki, ABŞ gələcəkdə özünə düşmən kəsiləcək Gülbəddin Hikmətyar və Üsamə bin Laden kimi adamları, dini fanatizmə əsaslanan terror qruplaşmalarını dəstəkləməkdən çəkinmirdi.

Bəlkə də Ağ Evdə, Pentaqonda bilirdilər ki, bu qruplaşmalar gələcəkdə probleme çevriləcək, amma onlar üçün əsas təhlükə sovet Rusiyasıydı. Terrorçular tünd sirkə kimi yalnız öz qablarını çatlada bilərdisə, Rusiya bəşəriyyət üçün təhlükəydi.

İndi də elədir. Hazırda da dünyanın bütün terror qruplaşmaları bir yerdə Rusiya qədər təhlükəli deyil.

Çünki bu dövlət yenidən ətraf dünyaya, yaxın qonşularına, uzaq rəqiblərinə düşmən kəsilib. 1979-82-ci illərdə olduğu kimi, yenə də Rusiyanın bir barmağı Suriyada, biri Türkiyədə, o biri Ukraynada, bu biri Qafqazda, başqa biri Şimali Koreyadadır. Ortada ruslar tərəfindən vurulmuş sərnişin təyyarəsi də var.

Suriyada qırıcı təyyarələrlə mülki əhali, hərbi baza demədən gözə görünən hər şeyi bombalayan Rusiyanın əl altından Şimali Koreyaya nüvə komponentləri ötürdüyü məlum olub. Di gəl, Kreml hər zamankı aqressiyası ilə belə bir iddia irəli sürmüş Cənubi Koreya hökumətindən üzrxahlıq tələb edir, "ya dediyinizi sübut edin, ya da üzr istəyin" deyir.

Sanki adi diş çöpü istehsal edə bilməyən Şimali Koreya öz qüvvəsi ilə birdən-birə nüvə başlıqlı ballistik raket istehsal edə bilərmiş. Dünyanın ən yoxsul, ən səfil ölkəsini nüvə dövləti edən, əlbəttə ki, Rusiyadır.

Heç kəs zənn etməsin ki, Rusiyanın işi yalnız böyük dövlətlərlədir, ABŞ-la, Ingiltərəylə, Almaniyayla çəkişir. Böyük dövlətlərlə intriqa öz yerində, Rusiya həmişə onlarla itələşib və bu davam edəcək, amma Kremlin gücü onlara çatmır və dönüb özündən qat-qat zəifləri ayağının altına salır.

Bu baxımdan Rusiyanın istər Qafqaz respublikalarına, istərsə də Baltikyanı ölkələrə qarşı aqressiv hərəkətlər edə biləcəyi hər zaman gözlənilləndir. Kreml bununla dünyaya necə güclü olduğunu sübut etmək ehtiyacı duya bilər və artıq duyur.

Dövşanı arabayla tutmağı dəfələrlə sınaqdan keçirmiş Qərb isə yenə də Rusiyaya qarşı qətiyyətli və tədbirlidir, onun gücünün nəyə dayandığını bilir və o sütunları yavaş-yavaş sarsıdır.

Ən qorxulusu da elə budur. Divara qısnanmış pişik son xilas çarəsi olaraq necə onu qısnayanların üstünə atıla bilərsə, Rusiya da elə bir hərəkət edə bilər. Bu dövlətin hökmdarı Putinin son illərdəki davranışı da göstərir ki, adam ən ağlasığmaz qərarlar verməkdən çəkinməz.

Bizə düşən oturub dünyada, regionda gedən prosesləri diqqətlə izləməkdir. Heç də hər şey yaxşılığa doğru deyil.

YENİ MÜSAVAT
N 33 (6354) 12 fevral 2016

# Moskva Ankaranın başı üstündən Vaşinqtona əl uzadır

## Suriyanı Güney Qafqaza güzəştə gedir - blef, yoxsa zərurət? Kremlin Suriyada martın 1-dən atəşkəs elan etmək təklifinin pərdəarxası...

**Rusiyanın Qara dəniz və Xəzər hövzəsində genişmiqyaslı hərbi təlimlərə başlaması haqda xəbər verilib. Bir sıra analitiklərə görə, bu təlimlər Kremlin region ölkələrinə Türkiyə və Qərbə növbəti dəfə güc nümayiş etdirmək niyyəti güdməklə yanaşı, həm də Moskvanın cəlb olunduğu Suriya konflikti ilə birbaşa bağlıdır.**

Məsələn, **tanınmış rusiyalı hərbi ekspert Pavel Felqenqauer** təlimlərlə bağlı bildirib ki, Rusiyanın hərbi dəstək verdiyi Əsəd qüvvələrinin strateji əhəmiyyətli Hələb şəhərini ələ keçirmək planı Moskva və Ankara arasında hərbi toqquşmaya gətirə bilər və əslində Xəzər və Qara dənizlərindəki son təlimlər elə bununla - ön hazırlıqlarla bağlıdır.

**Sitat: "Əsədin peşəkar piyada hərbi qüvvələri az olduğundan bu, üzücü və qanlı bir mühasirə olacaq. Total humanitar fəlakətə imkan verməmək üçünsə Hələbə xarici qüvvələr cəlb ediləcək. Ehtimal böyükdür ki, Qərb qüvvələri, yaxud türklər Hələbdəki müxalifət qüvvələrinin mühasirəsinin yarmaq və ya ora humanitar dəhliz açmaq istəyəcək. Bu isə öz növbəsində daha ciddi konfliktin, o cümlədən ümumavropa müharibəsinin alovlanmasına gətirə bilər".**

Maraqlıdır ki, hərbi təlimlərin fonunda "Röyters" rəsmi Moskvanın Suriyada martın 1-dən - Suriyaya müdaxilənin 5-ci ayının tamamında atəşkəs elan olunması barədə təkliflə çıxış etdiyi barədə xəbər yayıb. Məlumat Qərb məmurlarına istinadən yayılıb. Bundan öncə isə xarici işlər naziri Sergey Lavrov demişdi ki, Rusiya ABŞ-a Suriyadakı böhranın həll sxemini təklif edib. **"Ümid edirəm ki, orada əksini tapan çox sadə təkliflərə baxılması Vaşinqtonda çox vaxt aparmayacaq"**, - deyə nazir əlavə eləmişdi.

***

Bu qəbildən informasiyalar həqiqəti əks etdirirsə, o zaman belə çıxır, Rusiya Suriyanı tərk eləməyə hazırlaşır. Doğrudur, Rusiya Suriyadakı hədəflərinə demək olar, çatmayıb - hərgah Latakiyaya nəzarəti saxlamaqla Yaxın Şərqdə mövcudluğunu təmin etmiş saya bilər. Lakin o da faktdır ki, Suriyada rusların canlı və maddi itkiləri gündən-günə artır, son zamanlar hətta rus generalları gülləyə tuş gəlməkdədir.

Bütün bunları onsuz da ağır və qəzəbli durumda olan Rusiya cəmiyyətinə izah eləmək isə getdikcə çətinləşir. Qərbin maliyyə-iqtisadi sanksiyaları fonunda neftin ucuzlaşması Rusiya iqtisadiyyatına başqa yandan ciddi problemlər yaratmadadır ki, nəticə etibarilə Kremli heç olmasa, xarici siyasətdə hansısa uğura imza atmaq zorunda qoyur. Ən önəmlisi, sanksiyalardan qurtuluş üçün ən əvvəl ABŞ-la anlaşmaq zərurəti var ki, bu da bəzi ehtimallara görə, Suriya məsələsində güzəşt şəklində ola bilər.

İddialara görə, Moskva məhz Əsəd rejimi məsələsində siyasi bazarlıq hesabına həm sanksiyaları yumşaltmağa ümid edir, həm də Suriyanı güzəştə getmək qarşılığında Azərbaycanın da yer aldığı Güney Qafqazda Amerikadan yeni "kart-blanş" alıb möhkəmlənmək hədəfi güdülür. Xəzər və Qara dənizlərinə keçirilən son təlimlər də əslində bu hədəfə çatmaq üçün daha məqbul fon yaratmağa yönəlmiş kimi görünür.

***

Rusiyanın mövqeyinə təsir edən amillərdən biri də ABŞ-ın Qara dənizdə möhkəmlənmək üçün hərəkətə keçməsi ola bilər. Məlum olduğu kimi, NATO Qara dənizdə özünün yeni siyasətini elan edib. ABŞ Dövlət Departamentinin rəsmi saytında yerləşdirilən materialda bu barədə bildirilir. Materialda həmçinin Birləşmiş Ştatların Gürcüstanın təhlükəsizliyinə dəstək məsələsi yer alıb.

Bəzi analitiklərə görə, bu, Vaşinqtonun Qara dəniz və Güney Qafqaz uğrunda həlledici mübarizəyə başladığının təzahürüdür. Kremldə bunu bilməmiş deyillər və o üzdən də "mümkün olanı almaq" ssenariləri üzərində baş sındırmağa başlayıblar.

Vəziyyətə sözsüz ki, Türkiyə ilə gərginləşən münasibətlər də təsirini göstərməkdədir. Deyəsən, Moskva həm də Ankaranın başı üstündən onun bir elə isti münasibətlərdə olmadığı Vaşinqtonla sövdələşmə əldə edib, Türkiyənin özünü fakt qarşısında qoymaq istəyir - o cümlədən Suriya məsələsində.

**Alınacaqmı? Zaman göstərəcək.**

❑ **Siyasət şöbəsi**

# Azərbaycan-ABŞ münasibətlərində Nuland düyünü

## "İnqilablar ustasının" AŞ PA-ya Azərbaycanla bağlı təsir etmək gücü varmı?

**AŞ PA-da Azərbaycanla bağlı qətnamənin keçməməsində ABŞ dövlət katibinin Avropa və Avrasiya məsələləri üzrə köməkçisi Viktoriya Nulandın xüsusi rolunun olduğu barədə xəbərlər yayıldıqdan sonra Azərbaycan iqtidarının bir sıra təmsilçiləri, hakimiyyət mediası anti-ABŞ açıqlamaları verməyə başlayıblar. Son vaxtlar iki ölkə arasında müşahidə olunan "atəşkəs" yenidən pozulub. Bütün günahlar ABŞ-ın, Viktoriya Nulandın üzərinə yüklənir.**



Hətta iddia edilir ki, dekabr ayında ABŞ Konqresinin Helsinki Komissiyasının sədri Kristofer Smitin hazırladığı "Azərbaycan demokratiya Akti" adlı Azərbaycana və onun vəzifəli şəxslərinə sanksiyaları nəzərdə tutan qanun layihəsinin də arxasında Nulandın əli var. Bu iddiada olanlar hətta bildirirlər ki, Qərb dairələrindən Azərbaycan hakimiyyətinin Vaşinqtondakı əsas düşmənlərindən biri məhz Viktoriya Nulanddır. O Nuland ki, Ukraynada Maydan hərəkatı zamanı mitinqçilərə özü şəxsən yemək paylayırdı. Səfir Ceffri Payetlə üzə çıxan telefon danışıqlarından məlum olmuşdu ki, Nuland keçmiş sovet respublikaları üçün Maydan nəzəriyyəsinin müəlliflərindən biridir: "Nuland Azərbaycan hakimiyyətini xoşlamır. Onun Azərbaycanda 2013-cü il prezident seçkiləri barədə diplomatik etiketdən uzaq bəyanatları hələ yaddan çıxmayıb. Nulandın Azərbaycan hakimiyyətinə qarşı nifrəti o qədər yüksəlmişdi ki, bircə müxalifəti silahlı üsyana çağırması qalmışdı. O, aqressivdir, kompromislərə meylli deyil və Vaşinqtonun Əliyev hakimiyyəti ilə münasibətlərini gərginləşdirmək üçün əlindən gələni edir. Bakıya səfərindən sonra onun Azərbaycana qarşı aqressiyası nəinki azalmadı, əksinə, artdı.

Bizim Vaşinqtondakı səfirimiz Elin Süleymanovu arzuolunmaz adama çevirən də məhz odur. Bir ildir ki, E.Süleymanov Dövlət Departamentində görüş ala bilmir. Məhz Nuland Azərbaycanın Obama administrasiyası ilə dialoq cəhdlərinə, problemləri həll etməsinə mane olur. İndi isə Nuland Bakıya qarşı oyunda Obama administrasiyasının qatı tənqidçilərindən olan K.Smiti qabağa verir".

Bəs bu iddialar nə dərəcədə əsaslıdır? Viktoriya Nuland bu qədərmi güclü əllərə sahibdir ki, AŞ PA-nın mövqeyinə təsir edə bilir? Ermənipərəst konqresmenin erməni mediasına verdiyi bir açıqlamadan sonra ABŞ-la münasibətləri gərginləşdirməyə ehtiyac varmı?

**Siyasi şərhçi Elxan Şahinoğlu bildirdi ki, Viktoriya Nulandın inqilablarda rolu həddən artıq şişirdilir. Bu, Rusiyanın apardığı təbliğatın nəticəsidir:** "Hesab etmirəm ki, Azərbaycan hakimiyyəti Nulandın adını çox da mənfi mənada hallandırır. Nuland keçən il Azərbaycana səfərində də açıq ifadə işlətdi ki, onların Azərbaycanda inqilab etmək kimi düşüncə və planları yoxdur. Bu, həm Azərbaycan hakimiyyətini sakitləşdirmək üçün verilən açıqlama idi. Həm də həqiqətən də ABŞ-ın Azərbaycanda inqilab etmək planı yoxdur. ABŞ-ın hazırda Azərbaycanla enerji əməkdaşlığı, təhlükəsizlik əməkdaşlığı var.

AŞ PA-da Azərbaycanın xeyrinə olan qətnamənin qəbul edilməsinə Nulandın imkan vermədiyi barədə ermənilər dezinformasiya yayıb. Belə ki, bir ermənipərəst amerikalı konqresmen Ermənistanın hansısa saytına müsahibəsində deyib ki, sən demə, AŞ PA-da Azərbaycanla bağlı qətnamənin keçməməsində ABŞ dövlət katibinin Avropa və Avrasiya məsələləri üzrə köməkçisi Viktoriya Nulandın xüsusi rolu olub. Məqsədli şəkildə səslənmiş bu dezinformasiyanı ermənilər geniş şəkildə yaydılar. Çox təəssüf ki, həmin dezinformasiya da Azərbaycanda baş xəbərə çevrildi, hakimiyyətə yaxın bir sıra şəxslər də bu dezinformasiyanı həqiqət zənn edərək, ABŞ əleyhinə fikirlər bildirməyə başladılar. Hətta Azərbaycan Xarici İşlər Nazirliyi açıqlama verdi ki, Nuland məsələsini araşdıracaqlar. Amma Nulandla bağlı araşdırma aparmağa ehtiyac yoxdur. Araşdırılmalı bir şey varsa, bu da Azərbaycan diplomatiyasının fəaliyyətidir. Araşdırsınlar ki, niyə Azərbaycanın Avropa ölkələrindəki səfirləri bu qədər passiv oldu ki, AŞ PA-da qətnamə keçmədi. İzah edilməlidir ki, necə oldu ki, Azərbaycanla bağlı qətnamənin qəbuluna cəmi 4 səs çatmadı? Axı bunun günahını Azərbaycanın AŞ PA-dakı nümayəndə heyətinə yükləmək düzgün deyil. XİN və bizim xaricdəki səfirlərimiz Avropadakı deputatların nə qədəri ilə izahat işi aparıblar, nə qədərini Azərbaycanın mövqeyinə yaxınlaşdırıblar? Məndə olan məlumata görə, cəmi bir qrup avropalı deputata məktub göndərilib, onların da mütləq əksəriyyəti qətnamənin əleyhinə səs veriblər. Ona görə də Nulandı günahlandırmaq, ABŞ-a qarşı açıqlamalar vermək deyil, XİN-dən hesabat tələb etmək lazımdır".

**Ekspertin sözlərinə görə, ermənilərin məlum dezinformasiyanı yaymasında məqsəd böyük ehtimalla Azərbaycanla ABŞ arasında münasibətləri pozmaqdır:** "ABŞ prezidenti Barak Obama prezident İlham Əliyevi martın sonunda ABŞ-a Nüvə Təhlükəsizliyi Konfransına dəvət edib. Ermənilər o dezinformasiyanı yaymaqla bu səfər ərəfəsində ABŞ-Azərbaycan münasibətlərini gərginləşdirməyi hesablayıblar. Azərbaycan cəmiyyəti, xüsusilə hakimiyyət təmsilçiləri bunu nəzərə almalıdırlar və dezinformasiyanın təsiri altına düşüb ABŞ-la münasibətlərə gərginlik gətirə biləcək mövqe sərgiləməməlidir".

❑ **Etibar SEYİDAĞA**

# Soros Putinlə bağlı ABŞ və Aİ liderlərinə xəbərdarlıq etdi

**ABŞ və Aİ ölkələrinin liderləri "İslam Dövləti" (İŞİD) qruplaşmasının yaraqlılarına qarşı mübarizədə Rusiya prezidenti Vladimir Putinin potensial müttəfiq olduğunu düşünməkdə ciddi səhvə yol verirlər.**



Bu barədə amerikalı maliyyəçi Corc Soros project-syndicate.org-da dərc edilən yazısında bildirib.

Onun sözlərinə görə, Putinin məqsədi - Avropa İttifaqının dağılmasına vasitəçilik etməkdir, bunu etməyin ən asan yolu isə Aİ-yə çoxsaylı suriyalı qaçqının gətirilməsidir. Soros yazır ki, Suriyanın 70 min dinc sakini Türkiyədə qalıb, onlar orada qalmaya da bilər.

**"Putinin dahiyanə taktikası var, amma strateji dühа deyil. Onun Suriya münaqişəsinə Avropanın qaçqınlar böhranını kəskinləşdirmək üçün qarışdığını ehtimal etmək üçün heç bir əsas yoxdur. Həqiqətən də onun qarışması strateji səhv idi, indi Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğanla hər iki ölkənin maraqlarına toxunan münaqişəyə cəlb edilib"**, - Soros əlavə edib.

Bununla yanaşı, maliyyəçi deyib ki, Rusiya prezidenti Aİ-nin süqutu üçün imkan düşən kimi bu şansı əldən verməyib.

Eyni zamanda Sorosda ABŞ və Aİ liderlərinin Putini davranışına görə dəyərləndirməyərək onun sözünə nəyə görə inandıqları na dair sual yaranır.(oxu.az)

YENİ MÜSAVAT
N 33 (6354) 12 fevral 2016



# Prezidentin "Valyuta tənzimi haqqında" Qanunu imzalamaması təqdir edilir

## Ekspertlər bunun bir neçə səbəbini göstərir

**Dövlət başçısı İlham Əliyevin "Valyuta tənzimi haqqında" Qanunu imzalamadan geri qaytarmasını əksər ekspertlər düzgün addım hesab edir. Bununla belə, Milli Məclisdə müzakirəyə çıxarılıb qəbul edilən qanunun dövlət başçısı tərəfindən geri qaytarılması hökumətdaxili ziddiyyətlərin nəticəsi kimi də təqdim edilir.**

Qeyd edək ki, İ.Əliyev yanvarın 19-da qəbul edilmiş qanunu Milli Məclisə geri qaytarıb. Bu qanun 50 min dollardan artıq vəsaitin ölkədən çıxarılması zamanı 20 faizlik verginin tətbiqini nəzərdə tuturdu.

**Ekspert Samir Əliyev** məsələ ilə bağlı musavat.com-a açıqlamasında bildirib ki, bu qanunun müzakirəyə çıxarılıb parlamentdə qəbul edilməsi səhv addım idi: "Çünki Azərbaycanın xarici investisiyaya ehtiyacı olduğu bir dövrdə belə addım neqativ təsir edə bilərdi. Elə qanunun parlamentdə qəbulundan sonra xarici mətbuatda bununla bağlı kəskin reaksiya onu göstərdi ki, hökumətin addımı düşünülməmiş və qısamüddətli nəticəyə yönəlik olub. Bu qanunun qəbulu xarici investorların gəlişini əngəlləyirdi. Xüsusilə də nəzərə alaq ki, iri neft şirkətləri üçün problem yaradırdı. Düzdür, maliyyə naziri bunun onlara şamil edilməyəcəyini bildirmişdi. Ancaq qanunda həm rezidentlərə, həm də qeyri-rezidentlərə valyuta çıxışı ilə bağlı əlavə ödəniş nəzərdə tutulurdu. Bu baxımdan qanunun geri qaytarılması düzgün addımdır. Ancaq digər tərəfdən, qanunların qəbulu və sonradan ləğvi kimi hadisələr də imicimizə pis təsir edir".

**Ekspertin sözlərinə görə, investorlar hökumətin addımlarında, davranışlarında qeyri-müəyyənlik, sistemsizlik müşahidə edirlər:** "Və əmin deyillər ki, bu gün onların xeyrinə qəbul edilmiş qərar bir neçə aydan sonra ləğv edilməyəcək. Bütün bunlara fikir verilməlidir. Hökumət davranışlarından korrektələr edərək məsələlərə soyuqqanlı yanaşmalıdır və qərarlar strateji nəticəyə uyğun verilməlidir".

**Ekspert Natiq Cəfərli isə qeyd edib ki, hökumətin düşünülmüş strategiyası yoxdur:** "Hökumət bilmir nə etsin, necə etsin, həm savadları, bilikləri çatmır, həm də öz şəxsi korrupsiya maraqları da imkan vermir ki, doğru olanı etsinlər. Verilən qərarların nə məntiqi var, nə ardıcıllığı, nə də 1 həftəyə belə hesablaması, ona görə də dövlət adına ayıb olur, verilən qərarlar sonra ləğv edilir.

Həm deyirlər ki, ölkədə özəlləşmə olacaq, xarici sərmayədarlar gələcək, investisiyalar artacaq, həm də ölkədən çıxarılan 50 mindən yuxarı vəsaitə 20 faiz vergi tətbiq edirlər. Bunu duyan xarici sərmayədar nəinki ölkəyə gələr, heç xəritədə belə Azərbaycanın yerinə baxmaz. Xarici investoru qoyaq bir qırağa, yaxşı, tutaq ki, mən vicdanlı iş adamıyam. Xaricdən mal-məhsul gətirmək istəyirəm, 200 min dollarlıq müqavilən var, pul çıxardanda məndən 40 min dollar vergi alacaqlar? Bəs o zaman mən gətirdiyim malı neçəyə satmalıyam? Deməli, qiymətlər bahalaşacaq, ya da şanlı prokurorluq orqanları qapımı döyəcək ki, sən süni qiymət artırırsan, hələ 40 min də onlara verib, canımı qurtarmalıyam, eləmi? O zaman qiymət yenə artacaq. Qayıdaq əvvələ, şanlı gömrük orqanları gətirdiyim 200 minlik mala rüşvət almasalar belə, 30-36 faiz arası rüsum tutacaqlar- deməli, qiymət yenə qalxacaq. Sonra vergi orqanları gələcək ki, 20 faiz gəlir vergisi, 18 faiz ƏDV ver- qiymət yenə qalxacaq. Bunları təzəcə yola salan kimi Əmək Müfəttişliyi gələcək, deyəcək ki, bütün işçilərlə müqavilə bağla, işəgötürən kimi Sosial Müdafiə Fonduna maaşlardan 20 faiz ödə- qiymət yenə qalxacaq. Təzəcə nəfəs almaq istəyən kimi, Elman Rüstəmov çıxacaq TV-yə və deyəcək ki, narahat olmayın, 9-cu devalvasiya olmayacaq- dollarla aldığım malın qiyməti yenə qalxacaq. Yəni mən 200 min dollarlıq mal gətirmək üçün azı, bir 200 min dollar da pul xərcləməliyəm. Absurddur".

**Ekspert Qubad İbadoğlu isə bildirib ki, prezidentin qanuna dəyişikliyi imzalamadan geri qaytarmasını düzgündür:** "Hələ Milli Məclis qərar verərkən mən bu dəyişikliyi şərh edərək, onun yarada biləcəyi fəsadlar barədə fikirlərimi mətbuat vasitəsilə ifadə etmişdim. Odur ki, prezidentin addımını təqdir edirəm. Eyni zamanda hesab edirəm ki, indiki həssas zamanda bununla kifayətlənmək olmaz. İnvestorlar üçün güclü biznes və investisiya mühitini dəstəkləyən siyasi şərait yaradılmalı və onların təhlükəsizliyi təmin olunmalı, onlara müvafiq zəmanətlər verilməli, xüsusilə də vergi və gömrük qanunvericiliyində sabit rejim yaradılmalı, hökumətin fəaliyyətində açıqlıq və şəffaflıq artırılmalı, biznes korrupsiyadan azad olmalı, yaxşı idarəetmə tətbiq edilməlidir. Bununla yanaşı, hər bir investor əmin olmalıdır ki, investisiya yatırımı təhlükəsizdir, ölkədə dövlət və məhkəmə orqanları tərəfindən ədalətli və qərəzsiz davranış təmin edilir, biznesin qarşılaşdığı çətinliklər və üzləşdiyi mübahisələr müstəqil məhkəmələrdə qanun çərçivəsində ədalətlə həll edilir. Nəhayət, hər bir ölkədə investorların görmək istədiyi müəyyən təminatlar və zəmanətlər var".

❑ RÖYA



# Bakı «Cəbhə iqtidarı» dövrünə qayıdıb: gecələr küçəyə çıxmaq olmur

## "Azərişıq" və "Azəryolservis" axşamlar işıqların söndürülməsinə aydınlıq gətirdi; məsuliyyət BŞİH-in üzərində qalır

**İqtidar rəsmilərinin AXC-Müsavat hakimiyyəti dövrü haqqında səsləndirdikləri tənqidi fikirlərdən biri də bu idi ki, "gecələr küçəyə çıxmaq mümkün deyildi". Müşahidələrdən görünür ki, Bakı yenidən onların iddia etdiyi "Cəbhə iqtidarı dövrünə" qayıdıb. Son günlər gecələr Bakıda yollardakı, tunellərdəki, binaların üzərindəki işıqların söndürülməsi və paytaxtın qaranlığa qərq olması insanların narahatlığına səbəb olub.**

Bakının işıqlarının gecələr keçirilməsi hökumətin qənaət rejiminə keçməsi ilə izah olunur. Amma gecələr şəhərin küçələrinin qaranlığa qərq olmasının cinayətkarla da "qol-qanad" verə biləcəyini istisna etmir. Bəs görəsən, hökumətin vəsaitləri Bakını qaranlıqda qoyacaq dərəcədə tükənibmi? Qənaət məqsədilə bu addımın atılması düzgündürmü? Bu məsələdə hansı qurum məsuliyyət daşıyır?

**"Azərişıq" ASC-nin mətbuat xidmətinin rəhbəri Tanrıverdi Mustafayev "Yeni Müsavat"a açıqlamasında bildirdi ki, bu məsələnin "Azərişıq"la heç bir əlaqəsi yoxdur:** "Bu Küçə İşıqlandırması İdarəsinin səlahiyyətlərinə daxildir. Onlar da bizim yüz minlərlə abonentlərimizdən biridir və biz sizi necə fasiləsiz olaraq elektrik enerjisi ilə təmin ediriksə, onları da eyni dərəcədə təmin edirik. Onların enerjiyə nə qədər tələbatı varsa, bu ödənilir. Ancaq siz öz evinizdə, bu qurum da küçələrdə nə qədər qənaət edirsə, bu artıq bizim səlahiyyətimizdə olan məsələ deyil".

**"Azəryolservis" ASC-nin mətbuat xidmətinin rəhbəri Anar Nəcəfli də bildirdi ki, küçə və prospektlərin işıqlandırılması onların səlahiyyətində olan bir məsələ deyil:** "Tunellərdə işıqların söndürülməsindən söhbət gedə bilməz. Çünki tunellərdə gündüz saatlarında da işıqlandırma sistemi işləyir. Yəni tunellərdə 24 saat işıq yanır. Küçə və prospektlərdə isə bu hal mümkündür. Bakı şəhərində yolların işıqlandırılması bizim qurum tərəfindən aparılmır. BŞİH-in nəzdində işıqlandırma idarəsi var, bu məsələyə onlar nəzarət edir".

**İqtisadçı ekspert Natiq Cəfərli bildirdi ki, gecələr küçə və prospektlərdə işıqların söndürülməsi qənaət ediləcək ən sonuncu məsələdir və buna Bakı Şəhər İcra Hakimiyyəti (BŞİH) cavabdehdir:** "Bu həm də təhlükəsizlik məsələsidir və qaranlıqda hər hansı bir insanın həyatına təhlükə yaranacaqsa, bu qənaət rejiminin heç bir əhəmiyyəti qalmayacaq. Ancaq bilinən odur ki, hökumət bu yolla müəyyən qədər qənaət etməyi düşünür. Çünki Bakı Şəhər İcra Hakimiyyətinin həmişə borcu olub. Əvvəllər "Barmek"ə, sonradan "Bakıelektrikşəbəkə"yə borcu olub, indi isə yeni yaradılan "Azərişıq" ASC-yə borcu var. İllərdir bu borc yığılıb qalıb. Çox güman ki, indi o borcların artmaması, yeni borcların yaranmaması üçün BŞİH belə bir addım atmağa məcbur olub".



**Politoloq Ərəstun Oruclu isə bildirdi ki, gecələr küçələrdə işıqların söndürülməsi oğurluq hallarının və ağır cinayətkarlığın artmasına gətirib çıxaracaq:** "Birincisi, mən o iddianı qəbul etmirəm ki, Elçibəy iqtidarı dövründə gecələr küçələrə çıxmaq mümkün deyildi. İşıqların söndürülməsi ilə bağlı məsələyə gəlincə, bu, qənaət rejiminə keçilməsinin əlamətidir. Ancaq bu düzgün addım deyil. Bu vəziyyət şəhərin qaranlıq yerlərində cinayətlərin, soyğunçuluq, oğurluq hallarının, o cümlədən ağır cinayətlərin artmasına gətirib çıxaracaq. Bu qənaət təsəvvür olunduğundan daha da baha başa gələ bilər. Azərbaycanda dövlət orqanlarının düşüncəsində maliyyə vəsaitləri insan həyatından qat-qat dəyərlidir. Ona görə də belə bir mümkün fəsadın nəzərə alınmaması məni təəccüblü gəlmir".

Məsələ ilə bağlı Bakı Şəhər İcra Hakimiyyəti ilə əlaqə saxlamaq istəsək də, zənglərimizə cavab verən olmadı.

❑ Nərgiz LİFTİYEVA

YENİ MÜSAVAT
N 33 (6354) 12 fevral 2016



# Ölkədə yaşayışın səviyyəsi: "2", yoxsa "4"?

**2015-ci ildə 2 dəfə baş verən devalvasiya, qiymət artımı əhalinin gəlirlərinə çox ciddi təsir etdi. Manatın ucuzlaşması səbəbindən dövlət büdcəsindən maliyyələşən təşkilatlarda çalışanların əmək haqqı, pensiyalar iki dəfədən artıq dəyərsizləşdi. İş yerlərində ixtisarlar başladı. Azərbaycan dünya ölkələri arasında məvacib baxımından axırıncı yerlərdə qərarlaşır. Belə ki, saata görə minimum əmək haqqı digər ölkələrlə müqayisədə Azərbaycanda çox aşağı səviyyədədir. Təqaüdlər də eyni qaydadadır. Bu baxımdan da Azərbaycan aşağı yerlərdə qərarlaşır. Belə ki, bizdən fərqli olaraq Norveç təqaüdçüləri dollar hesabı ilə 2150 dollar, Fin təqaüdçüsü 1900 dollar, amerikalı təqaüdçü 1200 dollar, alman təqaüdçüsü 1290 dollar pensiya alır. Bu ölkələrin yaşayış səviyyəsi 5 ballıq şkala ilə çox yüksək yerlərdə qərarlaşıb.**

Maraqlıdır, bəs Azərbaycanın yaşayış səviyyəsini 5 ballıq şkala ilə qiymətləndirsək, neçə alar?

**İqtisadçı ekspert Natiq Cəfərli** bildirdi ki, Azərbaycanın 5 balıq şkala ilə qiymətləndirsək "sinifdə qalar": "2015-ci ili saymasaq, 2014-cü ildə Azərbaycanda bəzi göstəricilər qonşu ölkələrə nisbətən kifayət qədər normal idi. Azərbaycanda orta aylıq əmək haqqının, təqaüdün də miqdarı kifayət qədər yüksək məbləğlərdə göstərilirdi. Çünki manat baha idi. Manatın məzənnəsi devalvasiyadan sonra orta aylıq əmək haqqı, təqaüdlərin hesablanmasında, həm də gəlirlilik səviyyəsində aşağı düşüb və qonşu ölkələrdən aşağı səviyyələrə enmişik. Məsələn, Türkiyə, Rusiya, Qazaxıstanla müqayisəolunmaz dərəcədə aşağı düşüb. Həmin ölkələrdə də devalvasiya proseslərinin getməsinə baxmayaraq orta aylıq əmək haqqı da, təqaüdlərin miqdarı da Azərbaycanla müqayisədə kifayət qədər yüksəkdir. İstehlak zənbilinə gəldikdə isə təbii ki, qiymətlər artdıqca, məhsulların dəyəri də artır. Təəssüf ki, bu artım Azərbaycanda gün keçdikcə davam edəcək və gözlənilləndir. Təqaüdlərin və maaşların həcmi istehlak zənbilinə yetəcək qədər deyil. İş yerlərinə gəldikdə isə Azərbaycanda böyük neft pullarının gəldiyi dövrdə çox dayanaqsız və primitiv bir model var idi. Neft pullarının əsasən təmir-tikinti sahəsində xərclənməsi və bu yolla da iş yerlərinin yaradılması xətti tutulmuşdu. İndi də büdcənin, gəlirlərin, xərclərin azalması bunda da problem yaratdı və biz Azərbaycanda sürətlə iş yerlərinin azalması prosesini görürük. Bunu həm kommersiya, həm də dövlət qurumlarında müşahidə edirik.



**Natiq Cəfərli:**
"5 ballıq şkala ilə Azərbaycanı qiymətləndirsək təbii ki, "2" alır və sinifdə qalır"



**Zahid Oruc:**
"Düşünürəm ki, 4 daha obyektiv qiymət olardı"

Bütün bunlar onu deməyə əsas verir ki, indiki şəraitdə biz 5 ballıq şkala ilə Azərbaycanı qiymətləndirsək, təbii ki, "2" alır və sinifdə qalır".

**İqtisadçı daha yüksək qiymət almaq üçün üç amilə diqqət yetirilməli olduğunu dedi:** "Azərbaycanda gəlirlilik səviyyəsi artmalı, dayanıqlı yeni iş yerləri yaradılmalıdır. Bir də istehlak səbətinə daxil olan məhsulların qiymətinə uyğun olaraq insanların gəlirlilik səviyyəsi artmalıdır. Məsələn, iki il əvvəl mənə bu sual verilsəydi, mən Azərbaycana 5 ballıq şkala ilə 4-ə yaxınlaşan bir qiymət - "3 üstəgəl" qiymətini verərdim. İndi isə təəssüf ki, "2" alır".

**Deputat Zahid Oruc isə 5 ballıq şkala ilə Azərbaycan əhalisinin yaşayış səviyyəsinin "4"-ə uyğun gəldiyini deyir:** "Şkalalar bir az şərti xarakter daşıyır. Müxtəlif iqtisadi parametrlərə görə hesablama sistemləri də çox fərqlidir. İş yerlərinin itirilməsi, ixtisarların getməsi, ayrı-ayrı biznes strukturlarının, eyni zamanda dövlət təşkilatlarının gələcək planlaşdırmalarında müəyyən qədər qənaət rejiminə keçidi nəticəsində vəziyyət dəyişib. Bilirsiniz ki, müəyyən qədər insanlar iş yerlərini itiriblər. Bunun üzərinə əvvəlki illərdə də olanları gəlsək, hazırda hökumətin qarşısında dayanan ən mühüm vəzifələrdən biri iş yerləri ilə bağlıdır. Hesab edirəm ki, məhz indiki vəziyyətdə 5 ballıq şkala ilə Azərbaycanı "4"-lə qiymətləndirmək olar. Düşünürəm ki, bu, daha obyektiv bir qiymət olardı. Bununla bərabər, bilirəm ki, indiki gerçəklikdə çox aşağı qiymətləndirmə ilə də çıxış edənlər var və onların göstərdiyi faktlar da mövcuddur. Mən Milli Məclisdə təmsil etdiyim Bərdə rayonuna səfər etdim. Hörmətli Ramil Usubovun rəhbərliyi ilə Bərdədə müşavirə oldu. Qeyd etdiyiniz o parametrlərin hamısı həmin müzakirələrin əsasını təşkil edirdi. Cənab prezidentin son bir ayda verdiyi tapşırıqlara uyğun olaraq, məmurların bölgələrə daha kütləvi və intensiv səfərləri olur. Ümidvaram ki, biz həm bu "4" qiymətini əhalinin bütün kateqoriyalarına aid edə biləcəyik. Bizim cavabımızı bir işsiz oxuyarkən bu onda müəyyən bir mənfi assosiasiya doğura bilər. Gəlirləri aşağı düşmüş, borc öhdəliyi olan, xüsusən də kredit altında olan insan parlament üzvlərinin bəlkə də real vəziyyəti bilmədiyini, yaxud da vəziyyətə qeyri-obyektiv qiymət verdiyini düşünə bilər. Amma hər halda, əvvəlki dövrdə müəyyən bir potensial formalaşıb. Ölkənin infrastrukturu var. Çox sürətlə qeyri-neft sektoruna keçid baş verməkdədir. Əminəm ki, bizim verdiyimiz qiymət bundan sonrakı dövrdə daha da möhkəmlənib ölkə əhalisinin bütün kateqoriyalarını əhatə edə biləcək".

❑ **Günel MANAFLI**

# 23 yaşlı gəncin insanı yandıran taleyi









## Əməkdaşımız körpəsinə dərman ala bilmədiyi üçün özünü yandıran Taleh Ömərlinin ailəsindən yazır...

**Bakıda 23 yaşlı gəncin özünə od vuraraq intihar etməsi xəbəri hər kəsi dəhşətə gətirib. Ailəli olan Taleh Ömərli yaşadığı mənzildə üstünə benzin tökərək özünü yandırıb. Həm də ailə üzvlərinin və qonşularının gözü qarşısında... Bədəninin 70 faizindən çoxu yanan gənc həmin gün- fevralın 10-da xəstəxanada dünyasını dəyişib.**

Hadisə Zirə qəsəbəsi, Süd-çülük sovxozu adlanan ünvanda baş verib. Taleh Ömərli bir il əvvəl köçdükləri bu qəsəbədə tikdikləri kiçik daxmada özünə od vurub.

İlk gördüklərimizdən belə qənaətə gəldik ki, ailə həddən artıq acınacaqlı durumdadır. İki otaqlı yarımtikilidə Taleh, yoldaşı, körpəsi və anası ilə birlikdə yaşayıb. Hadisə baş verərkən Talehin yanında yoldaşı və körpəsi olub.

Evin həyətinə daxil olarkən bizi ilk qarşılayan Talehin xalası Südabə Səmədova oldu. Talehi qucağında böyütdüyünü deyən S.Səmədova bu ağır hadisənin imkansızlıqdan, işsizlikdən və çarəsizlikdən baş verdiyini dedi.

"Taleh qucağımda böyüyüb. Öz uşaqlarımdan ayırmamışam. Bacımın bircə balası idi. İş axtarırdı, imkansız vəziyyətdə idi, getmədiyi yer qalmamışdı. Ailəsinə, körpəsinə baxa bilmədi. Həmişə də bunu deyib, utanırdı"- deyən Südabə Səmədova bizi gənc ailənin yaşadığı daxmaya dəvət etdi.

Ailənin yaşadığı iki otaqlı bu evin döşəməsi torpaqdır. Tavan isə yağış suları içəri tökülməsin deyə sellofanla örtülüb. Balaca otaqlardan birində ailənin dörd üzvü birlikdə gecələyir. Digər kiçik otaq isə mətbəx kimi istifadə olunur. Rütubətli, divarlarında 2 gün əvvəl yağmış yağışın izləri olan bu otaqlar ailənin 1 il əvvəl Mingəçevirdən gəldikdən sonra sığınacağı olub.

İntihar edən gəncin atası Hümbət Ömərli Qarabağ döyüşlərində cəbhəyə gedən könüllülərdən olub. Ailə üzvlərinin dediyinə görə, H.Ömərli 1993-cü ildə Murovdağda itkin düşüb. H.Ömərli döyüşə gedəndə həyat yoldaşı hamilə olub.

Taleh anasının və xalasının himayəsində böyüyüb. Hadisə baş verən gün Talehin anası evdə olmayıb. Oğlunun dəhşətli intiharını göz yaşları içində danışan ana çarəsizliyini yaşadıqları evi və dərddən əyilən belini göstərərək danışır.

Taleh və ailəsi bir il əvvəl Mingəçevirdə yaşayıblar. Talehin toyu da Mingəçevirdə olub. 2013-cü ildə ailə həyatı quran Taleh daha sonra Bakıya köçüb. Bakıya köçmələrinin səbəbi isə anasının təcili əməliyyata ehtiyacı olması olub. Belə ki, əməliyyat üçün lazım olan məbləği ödəmək üçün ailə Mingəçevirdə olan evlərini satıb. Əməliyyat xərci ödəndikdən sonra qalan məbləğlə Zirə qəsəbəsində torpaq sahəsi alıblar və bu evi tikiblər.

Ailənin tək gəliri Talehin gündəlik fəhləlikdən qazancı olub. Günlərlə işsiz qalan Taleh 15-20 manata gündəlik fəhləlik edirmiş.

**Mələhət Ömərova oğlunun intihar etmə səbəbini belə danışır:** "Yazıq uşaq nə edəcəyini bilmirdi. Çox fikir edirdi. Ancaq belə edəcəyini ağlımıza gətirməzdik. Mən özüm xəstəyəm. Əməliyyatdan sonra da ağrılarım dayanmır. Nəvəm də astmadır. Müalicəsinə, dərmanlarına oğlum pul tapa bilmirdi. Deyirdi ki, mən necə atayam ki, bir uşağa, ailəmə baxa bilmirəm".

İntihar baş verən gün Talehin yanında yoldaşı Nərmin olub. Həmin gün həkimin körpənin müalicəsi üçün yazdığı reseptdə olan dərmanları almaq lazım imiş. Lakin Talehin buna imkanı çatmayıb.

**Talehin xalası intiharın necə baş verdiyini Nərmindən eşitdiyi kimi belə nəql edir:** "Taleh körpəyə lazım olan dərmanları ala bilməyib. Uşağın da vəziyyəti ağırlaşıb. Taleh Nərminə deyib ki, mən necə atayam ki, övladıma baxa bilmirəm. Yan otağa keçib. Neft dolu qabı götürüb ki, özümü yandıracam. Nərmin onu fikrindən daşındıra bilməyib. Çölə çıxıb qışqırıb, kömək çağırıb. Nərmin və qonşular gələnə qədər Taleh nefti başından tökərək özünü yandırıb. Küçədə qonşular söndürüb xəstəxanaya aparıblar".

**Talehin ölümündən sonra ailənin yas mərasimini təşkil etməyə imkanı çatmayıb, hətta başsağlığı üçün gələnlərin oturması üçün stol-stul qonşulardan alınıb. Yas çadırını qurmağa belə gücü çatmayan ailə qonşuların köməyinə möhtac qalıb.**

"Taleh intihar etməmişdən bir gün əvvəl gecə ac yatıblar. Bu daxmada çarəsizlikdən bir ailə məhv oldu. Bu, yaşamaq deyil, sürünməkdir. İnsanlar acından ölür. 23 yaşı var idi. Vallah, iş tapa bilmirdi. Fəhləlik edən adam iş olsa, gedib işləməzdimi? Mingəçevirdə qeydiyyatdadırlar. Pul yoxdur ki, gedib orda uşağa şəhadətnamə alsınlar. İki yaşı olacaq, amma hələ şəhadətnamə ala bilməyiblər" deyə, Talehin xalası ailənin üzləşdiyi çarəsizliyi danışır.

23 yaşlı gənci itirən ailə bu gün daha bir faciə yaşaya bilərmiş. Talehin yoldaşı Nərmin yanvarın 11-də səhər saatlarında intihara cəhd edib. Evdən çıxan Nərmin yaxınlıqdakı magistral yola qaçıb. Nərminin həyətə çıxdığını görən ailə üzvləri onun arxasınca gediblər. Ailə üzvləri Nərmini yol kənarında özünü avtomobillərin altına atmaq istəyərkən saxlaya biliblər.

Anası oğlunun heç bir banka borcunun olmadığını da dedi.

Taleh evlərinin yaxınlığındakı "Qıştağ" qəbiristanlığında dəfn olunub. Həyat yoldaşı Nərmin ondan özünə yadigar olaraq kül olmuş geyimlərini saxlayıb...

**İndi geriyə bu daxmada Talehin 1 yaş 6 aylıq körpəsi, xəstə anası və sevərək ailə həyatı qurduğu həyat yoldaşı qaldı...**

❑ **İlkin MURADOV**
**Fotolar: Toğrul İSMAYIL**

**Bu gün Münhen Təhlükəsizlik Konfransı öz işinə başlayacaq. Təhlükəsizlik böhranı, məhdud imkanlar, beynəlxalq intizamın zəifliyi məsələləri 12-14 fevral tarixlərində keçiriləcək 52-ci Münhen Təhlükəsizlik Konfransında müzakirələrin mərkəzində yer alacaq.**

Munich Security Conference msc Münchner Sicherheitskonferenz

# Bu gün Münhen Təhlükəsizlik Konfransı başlayır: tədbiri mühüm edən səbəblər...

## Azərbaycan prezidentinin də qatılacağı toplantıda 70-dən çox ölkə təmsil olunacaq

Tədbirdə iştirak etmək üçün Münhenə 30-dan çox dövlət və hökumət rəhbərləri, 70-dən çox XİN başçıları və müdafiə nazirləri toplaşacaq.

Konfrans iştirakçıları Avropanın qaçqın böhranına cavabı, Suriyadakı müharibə və Avropa təhlükəsizliyinin gələcəyi, Saxaradan cənubdakı Afrika ölkələrinin sabitliyi, kibertəhlükəsizlik kimi məsələləri müzakirə edəcək. İlk dəfə Bill və Melinda Geyts Fondu və "Merck"lə birgə təşkil edilmiş qlobal sabitlik və təhlükəsizliyə epidemiyaların yaratdığı təhlükəyə həsr olunan sessiya keçiriləcək.

İordaniya kralı II Abdulla, Polşa prezidenti Andjey Duda, Ukrayna prezidenti Pyotr Poroşenko, Rusiya baş naziri Dmitri Medvedyev, İraq baş naziri Hayder əl-Abadi, ABŞ dövlət katibi Con Kerri, Rusiya xarici işlər naziri Sergey Lavrov konfransda iştirakını təsdiqləyib.

Azərbaycan xarici işlər naziri Elmar Məmmədyarovun jurnalistlərə verdiyi açıqlamaya görə, Azərbaycan prezidenti İlham Əliyev də konfransda iştirak edəcək. Ölkə prezidenti konfransda enerji və təhlükəsizlik məsələləri ilə bağlı çıxış da edəcək.

Konfransı Almaniyanın müdafiə naziri Ursula fon der Leyenlə fransız həmkarı Jan-İv Le Drian açacaq. Fransanın baş naziri Manuel Valls da konfransda çıxış edəcək.

Konfransın işində həmçinin Əfqanıstan prezidenti Əşrəf Qani, NATO baş katibi Yens Stoltenberq, Avropa Parlamentinin prezidenti Martin Şults, Avropa İttifaqının xarici işlər və təhlükəsizlik siyasəti üzrə ali nümayəndəsi Federika Moqerini, İranın xarici işlər naziri Məhəmməd Cavad Zərif, Səudiyyə Ərəbistanının xarici işlər naziri Adel əl-Cubeir də iştirak edəcək .

Konfrans çərçivəsində bir sıra ölkələrin milli kəşfiyyat idarələrinin rəhbərlərinin, o cümlədən ABŞ Milli Kəşfiyyat İdarəsinin direktoru Ceyms Klepper və Böyük Britaniyanın Hökumət Əlaqələri Mərkəzinin rəhbəri Robert Hanniqanın iştirakıyla müzakirələr baş tutacaq.

Konfransa həddən artıq önəm verildiyi iştirakçıların sayı və ranqından bəlli olur. Bəs Münhen Təhlükəsizlik Konfransını bu qədər mühüm edən səbəb nədir?

**Politoloq Qabil Hüseynli bildirdi ki, beşinci dəfədir Münhen Təhlükəsizlik Konfransı keçirilir. İlk vaxtlar bu, yalnız Qərb ölkələrinin iştirakı ilə həyata keçirdilər. Sonradan daha da populyarlaşdı və bir növ dünyada sülh və təhlükəsizlik problemlərinin müzakirə edildiyi, praktiki məsləhətlər hazırlandığı mühüm toplantıya çevrildi:** "İlk vaxtlar bunu yaradanlar onu BMT Təhlükəsizlik Şurasının fəaliyyətinin səmərəsizliyi, oradakı cəbhələşmə ruhunun hökm sürməsi ilə əlaqədar alternativ bir təşkilat kimi yaratmışdılar. Burada BMT Təhlükəsizlik Şurasındakı kimi veto hüququ olan dövlətlər yoxdur. Sadə, əksəriyyətin səs çoxluğu ilə qəbul edilən səsvermə proseduru var. Burada qəbul edilən qərarlar yerinə yetirilməsi derektiv olan sənədlərdir. Bu səbəbdən Münhen Təhlükəsizlik Konfransı dünyada sülhün və əmin-amanlığın qaranti olan çox mühüm və populyar bir toplantıya çevrilib. Buna görə də hər il onun sıralarına qatılan dövlətlərin sayı artır. İndiki zamanda dünyada bir sıra münaqişələrin getdiyi bir vaxtda Münhen Təhlükəsizlik Konfransı özünün əhəmiyyətini daha da artırır".

**Politoloq onu da dedi ki, Münhen Təhlükəsizlik Konfransında ağırlıq təşkil eləyən dövlətlər Qərb dövlətləridir. ABŞ və Almaniya burada az qala sərəncamverici bir səlahiyyətlərə malikdir. Onlar yeni dünya düzəninin formalaşmasına qatqılar vermək niyyəti ilə belə toplantıları keçirirlər:** "Mən gözləyirəm ki, budəfəki konfrans daha əhəmiyyətli olacaq. Yaxın Şərq məsələləri, Rusiyanın Ukraynaya, Suriyaya etdiyi təcavüz hərəkətləri, ümumiyyətlə, Rusiyanın dünyada oynadığı mənfi rol geniş müzakirə olunacaq və sənədlər qəbul ediləcək".

**Q.Hüseynli vurğuladı ki, Azərbaycanın toplantıya ən yüksək səviyyədə qatılmasının əsas səbəbi Azərbaycanın özünün də ciddi təhlükəsizlik problemlərinin olmasıdır:** "Azərbaycan Ermənistanla müharibə vəziyyətindədir. Bölgədə sürətlə silahlanma var, bölgə bəlkə də dünyanın ən millitaristləşdirilmiş bölgəsidir və bundan Azərbaycanın təhlükəsizliyinə təhdidlər var. Azərbaycan həmin konfransda iştirak etməklə sülhün tərəfdarı olduğunu göstərmək istəyir. Münhen Təhlükəsizlik Konfransı həm də münasib təbliğat tribunasıdır".

Münhen Təhlükəsizlik Konfransında demokratiya məsələlərinin müzakirəyə çıxarılıb-çıxarılmadığına gəlincə, politoloq qeyd etdi ki, münaqişələr müzakirə olunan zaman bu münaqişələrin törəmə səbəbləri göstərilərkən həmin ölkələrdə avtoritar idarəçiliyin mövcudluğu, demokratiyanın azlığı da əsas kimi göstərilir. Çıxış yollarından biri kimi demokratiyanın genişlənməsinin vacibliyi məsələsi gündəmə gətirilir.

❑ **Etibar SEYİDAĞA**

# Rusiyanın enerji "üçbucağı" təklifi Azərbaycana nə vəd edir?

## Elxan Şahinoğlu: "İnanmıram ki, Rusiya Azərbaycan və İranla birgə enerji əməkdaşlığında maraqlı olsun"

**Biz Rusiya, Azərbaycan və İran arasında "üçbucağın" yaradılması üzərində çalışırıq. Bu sözləri Rusiyanın Azərbaycandakı səfiri Vladimir Doroxin "Komsomolskaya Pravda" nəşrinə müsahibəsində bildirib. Burada söhbət enerji məsələləri üzərində əməkdaşlıqdan gedir. Müsahibəsində bir çox məsələlərə toxunan səfirin fikirlərindən ən çox maraq doğuran məsələ məhz bu olub. Regiondakı enerji layihələrinin bir çoxundan kənarda qalan Rusiyanın bu "üçbucağı" əsasən enerji məsələlərində müttəfiqlik üzərində düşünülüb. Bu isə o deməkdir ki, Rusiya-İran və Azərbaycan strateji müttəfiqə çevrilə bilərlər. Səfirin açıqlamasında qeyd olunan əməkdaşlığın nə dərəcədə real olması da sual doğuran məqamlardan biridir. Bundan əlavə, regiondakı iki güc dövlətinin daxil olduğu üçlüyə qatılmaq Azərbaycanın milli maraqlarına uyğundurmu?**



"Yeni Müsavat"a açıqlamasında bu məsələni şərh edən **politoloq, Atlas Araşdırmalar Mərkəzinin rəhbər Elxan Şahinoğlu** bu məsələdə Rusiyanın səmimiliyinə inanmadığını bildirdi: "İnanmıram ki, Rusiya Azərbaycan və İranla birgə enerji əməkdaşlığında maraqlı olsun. Hazırda iki ölkə arasında nəqliyyat dəhlizi müzakirə olunur və Azərbaycan bu məsələdə maraqlıdır ki, İranla Rusiyanı birləşdirən dəmir yolu ölkəmizin tranzit statusunu artırır. Bizə gələn xəbərlərə görə, İran və Rusiya eyni məsələ ilə bağlı Ermənistanla da danışıqlar aparır. Ermənistana böyük nümayəndə heyətləri Tehrana gedir, hərbi əməkdaşlıq haqqında da fikir mübadiləsi gedir. Üstəgəl, hərbi əməkdaşlıq haqqında da fikir mübadiləsi gedir. İran qazının Ermənistan üzərindən satışı da gündəmdədir. Rusiya əgər həqiqətən Rusiya-İran-Azərbaycan enerji əməkdaşlığında maraqlı olsaydı, gərək fəallıq nümayiş etdirəydi. Ancaq biz Rusiya hökumətinin bu istiqamətdə fəallıq nümayiş etdirdiyini hələ ki müşahidə etmirik".

**Ekspertin sözlərinə görə, Azərbaycanla əməkdaşlıqda İran daha fəaldır:** "Əksinə, İran daha fəaldır və həm Azərbaycanla, həm Ermənistanla paralel danışıqlar aparır. Kimə üstünlük verəcəyini hələ müəyyənləşdirməyib. Azərbaycan üzərindən sanksiyalar götürüldükdən sonra nümayəndə heyətləri İranda oldu. Azərbaycanın iqtisadiyyat naziri də orada danışıqlar apardı. Bugünlərdə prezident İlham Əliyevin də İrana səfəri olacaq ki, bu məsələləri bir daha diqqət mərkəzinə gətirsin. Ona görə də mən hələ ki bu qərarın verildiyini düşünmürəm ki, Rusiya-İran-Azərbaycan üçlüyü enerji məsələlərində əməkdaşlıq edə bilər".

**Politoloq onu da diqqətə çatdırdı ki, Rusiya Azərbaycanın enerji və tranzit məsələləri ilə bağlı planlarından narahatdır:** "Azərbaycan əsas enerji və tranzit resurslarının bir hissəsini Rusiyadan yan keçməklə Avropaya çıxarmağı planlaşdırır. İstər, Bakı-Tiflis - Qars layihəsi, istər Çindən başlayan, Ukraynadan uzanan dəmiryol nəqliyyat xətti hamısı Rusiyadan yan keçib və bu Moskvanı qıcıqlandırır. Rusiya Ukraynanı blokadaya salmaq istəyir və dəmir yolunun o ölkədən keçməsinə imkan vermir. Ancaq Azərbaycan imkan yaradır ki, Ukrayna Gürcüstan və Azərbaycan üzərindən bunu həyata keçirsin. Digər bir faktın üzərində də dayanmaq istərdim ki, Rusiyanın İrandakı səfiri erməni əsillidir. Mən inanmıram ki, həmin şəxs İran-Rusiya-Azərbaycan əməkdaşlığına töhfə versin. Yəqin ki, onun fikrindəki məqamlardan biri Rusiya- İran əməkdaşlığı ilə yanaşı, Ermənistan-İran əməkdaşlığını da qurmaq və İran-Azərbaycan əməkdaşlığını pozmaqdır. Bu amili də nəzərə alaraq mən inanmıram ki, Rusiya bu üçbucağın yaranmasında, İran - Rusiya - Azərbaycan enerji əməkdaşlığının yaranmasında maraqlı olsun".

**Bu "üçbucağın" Azərbaycanın milli maraqları baxımından dəyərləndirilməsinə gəlincə, E.Şahinoğlu vurğuladı ki, müstəqilliyimizə xələl gətirməyən istənilən əməkdaşlıq Azərbaycan üçün faydalıdır:** "Burada şərt ondan ibarətdir ki, istənilən əməkdaşlıq Azərbaycanın müstəqilliyinə təhdid yaratmasın və bununla yanaşı, ölkənin gəlirlərinin artması üçün imkan yaratsın. Əgər İranla əməkdaşlıqda bu iki amil gözləniləcəksə, bu bizə faydalıdır. Mən düşünmürəm ki, İranla əməkdaşlıq Qərblə əməkdaşlığa ziddiyyət təşkil edir. Əksinə, İran bu gün sanksiyalardan qurtulub və Qərblə əməkdaşlığa ehtiyacı var. Qərb də İranla əməkdaşlıqda maraqlıdır. Ona görə də İranın Azərbaycanla və Qərblə əməkdaşlığı bir-birinə zidd deyilə, bəlkə də bir-birini tamamlayır. Ancaq əsas şərt odur ki, İran siyasi məsələdə Azərbaycanın işlərinə qarışmır".

❑ **Nərgiz LİFTİYEVA**

YENİ MÜSAVAT
N 33 (6354) 12 fevral 2016

**Baş nazirin müavini Abid Şərifovun ailəsinin payı olan "Evrascon" ASC şirkətində yenidən maaş problemi yaşanır. Şirkətin "Energomost İNT Group" adı altında fəaliyyət göstərən Qazaxıstan bölümündə çalışan, əksəriyyəti azərbaycanlı olan işçilər 5 aydır əmək haqqı ala bilmirlər. Bu, ASC-də yaranan ilk maaş üsyanı deyil. 2013-cü ildən başlayaraq şirkətdə maaşların gecikməsi halları təkrarlanır. Sonuncu belə problem 4 ay əvvəl başlanıb və işçilər müxtəlif qurumlara müraciət ediblər. Müraciətlər nəticəsiz qaldığından işçilər problemi ictimailəşdirməyi qərara alıblar.**

# Abid Şərifovun şirkətindəki tətillə bağlı yeni xəbərlər

## Əksəriyyəti azərbaycanlı olan işçilər 5 aydır əmək haqqı ala bilmirlər



"Biz Bakıdan Qazaxıstana ezam olunmuş Azərbaycan vətəndaşıyıq. Yəni biz şirkətdə əvvəldən işləmişik, bir müddətdir ki, bizi Qazaxıstana gətiriblər. Deməli, "Evrascon" 2014-cü ildən Qazaxıstanın Nəqliyyat və Kommunikasiya Nazirliyinin sifarişlərini yerinə yetirir. Hazırda bu ölkənin 3 şəhərində körpü tikir. Biz Almatı şəhərində işləyirik. Burada da qalırıq. Qaldığımız yerin şəraiti yaxşıdır" deyə, işçilərdən biri "Yeni Müsavat"ın elektron ünvanına yazıb.

**Qeyd edib ki, 20-dən çox körpü tikiblər:** "Əmək haqqımız 1000 manatdır. 2015-ci ilin sentyabr ayından maaşımızı vermirlər. Yaranmış problemlə bağlı Qazaxıstanda bizim rəhbərimiz olan Ramiz Tağıyevə şikayət etmişik. Bizi qəbul edib. Amma hər dəfə quru vəd verib. "Evrascon" şirkətinin baş nazirin müavini Abid Şərifova məxsus olması heç kimə sirr deyil. Biz yaranmış problemlə bağlı Azərbaycanın Qazaxıstandakı səfirliyində olduq. Bizə buradan dedilər ki, müraciətimizi faksla göndərək. Amma bizim bu imkanımız olmadığı üçün müraciət edə bilmədik. Məlumat üçün bildirək ki, bu şirkət Azərbaycan və Qazaxıstanla yanaşı Rusiya, Ukraynada fəaliyyət göstərir".

**"Yeni Müsavat"ın əməkdaşı işçilərə əmək haqlarının nə vaxt veriləcəyi sualı ilə "Evrascon" ASC-nin iqtisadi məsələlər üzrə sədr müavini Namiq Kərimliyə müraciət edib. N.Kərimli problemin həlli üçün tədbirlər görüldüyünü açıqlayıb:** "Hazırda ASC-nin bütün qurumlarında maaş problemi var. Bakıda baş ofisdə də 4 aydır yubanma var. Sonuncu dəfə maaşı sentyabrda almışıq. Hazırda qış mövsümüdür. Ona görə də işlərdə yubanmalar var və müvafiq olaraq işlər görülmədiyindən hesablarımıza vəsaitlər daxil olmur. Digər tərəfdən də Azərbaycanda olduğu kimi ilin əvvəlində Qazaxıstanda da büdcənin təsdiqlənməsi məsələsi var. ASC bu günə qədər problem yaranan-da maaşı son qəpiyinə qədər ödəyib, bundan sonra da ödəyəcək. Təxminən 3 aya bütün borcları ödəyəcəyik".

Bir müddət əvvəl meydan.tv yazmışdı ki, A.Şərifovun həyat yoldaşı Sədayə Yaqub qızı "Evrascon" ASC-nin səhmlərinin 22 min 920 ədədinin (nizamnamə kapitalının 12,15 faizi) mülkiyyətçisidir. Şərifovların "Evrascon" ASC-yə birbaşa bağlılığını onların seçici siyahıları üzrə qeydiyyat ünvanı göstəriciləri də təsdiq edir. Onların hər ikisi Bakı şəhəri, Azadlıq prospekti, ev 144, mənzil 73 ünvanında qeydiyyatdadırlar. Bu, reyestr göstəriciləri ilə eynidir. Əvvəllər "Azərkörpü" ASC olan "Evroscon" uzun illər bir çox dövlət sifarişlərini birbaşa və tender yolu ilə əldə etməsini həm biznes dairələri, həm də ictimaiyyət tikinti sektorunu "kurasiya" edən Abid Şərifov faktoru ilə əlaqələndirirdi. Çox da uzaq olmayan 2011-ci ildə şirkət 260,2 milyon manatlıq, 2012-ci ildə isə 302,3 milyon manatlıq iş həcmi yerinə yetirib. Həm Şərifov, həm də şirkətin özü təbii ki, himayədarlıq faktını hər zaman inkar edib. "Evrascon" ASC-nin nəzarət səhm zərfi (51,2 faiz) cəmiyyətin Müşahidə Şurasının sədri İsmayıl Əfəndi İsmiyevə məxsusdur. İsmiyevin Türkiyədə "Effendi International Group" inşaat-sənaye şirkətinə, eləcə də vaxtilə "Texnomost" adını daşıyan "Hidrotexniki və Nəqliyyat Qurğularının Layihələndirilməsi üzrə Gidrotransproyekt Elmi-Tədqiqat Mərkəzi" MMC-yə sahib olduğu bildirilir. Bu şirkət həm də "Evrascon" ASC-nin 16,89 faizinə nəzarət edir.

❑ **E.MƏMMƏDƏLİYEV**

# Bankların bağlanması prosesi niyə səngidi?

## Ekspertlər müxtəlif səbəblər göstərirlər

**İl başlanandan bankların sürətlə başlanan bağlanma prosesi səngiyib. Yeddi bankın bir-birinin ardınca bağlanması bank sistemi ilə bağlı ciddi narahatçılıq yaratsa da, az sonra onlardan biri fəaliyyətini davam etdirməyə başladı. Ekspertlər çox sayda bankın tez bir zamanda bağlanacağının anonsunu versə də, artıq prosesin dayandığı hiss olunur. Ekspertlər müxtəlif səbəblər göstərirlər.**




**Ekspert Samir Əliyev** məsələ ilə bağlı musavat.com-a bildirib ki, banklarla bağlı prosesin səngiməsi səbəbsiz deyil: "Doğrudan da bankların sürətli bağlanması prosesi gedirdi. Və bunun da əsas səbəbi əmanətlərin tam sığortalanması haqqında qanunun qəbulu ilə bağlı idi. Yəni o qanun qəbul olunsa, o deməkdir ki, əmanətlər tam sığortalanacaq və belə bir vəziyyətdə Mərkəzi Bank bankları bağlamayacaq. Sadə səbəbə görə ki, həmin banklardakı bütün əmanətləri dövlət qaytarmalıdır. Bizdə də bu proses sürətlə getdi, altı bank bağlandı. Ötən həftə daha bir neçə bankın bağlanması planlaşdırılırdı. Bunlar tam real idi. Sonradan nəsə bu proses dayandı. Düşünürəm ki, burada bir sıra səbəblər ola bilər. Birinci səbəb onunla bağlıdır ki, belə sürətli bağlanma prosesləri bazara çox pis təsir göstərir. Əhali əmanətlərini kütləvi şəkildə banklardan çəkir. Bu isə banklar üçün problem yaradır. Bu, birinci səbəbdir. İkinci səbəb onunla bağlıdır ki, bağlanmağa namizəd banklar indiyə kimi bağlanmış banklarla müqayisədə böyük banklardır və onların əmanət bazarı daha böyükdür. Əgər həmin banklar bağlansa, bu, daha çox əmanətçini narazı sala bilər. Ona görə də həmin bankların bağlanması bir müddət təxirə salındı. Üçüncü səbəb isə təbii ki, həmin bankların birləşdirilməsi ola bilər. Yəni bundan sonra banklar birləşməyə üstünlük verəcəklər. Amma hələ ki birləşmə ilə bağlı real nəticə yoxdur. Dördüncü variant odur ki, böyük ehtimalla əmanətin tam sığortalanması haqqında qanunun qəbulu bir qədər uzansın. Ola bilsin, qanun fevral ayında qəbul edilməsin. Bu proses marta qədər, hətta qeyri-müəyyən müddətə qədər uzana bilər. Bankların bağlanması məsələsi artıq dayanıb. Maliyyə Bazarlarına Nəzarət Palatası fəaliyyətə başlayacaq. Martdan çox güman ki, tam fəaliyyətə başlayacaq. Ola bilsin, bankların bağlanması prosesi həmin palatanın öhdəsinə buraxılsın. Bunlar versiyalardır. Çox çətin durumda olan banklar var ki, bu gün həmin banklar bağlanmalıdır. Amma burada başqa maraqlar da var. Çünki bankların arxasında güclü adamlar durur və Mərkəzi Bank həmin güclü adamlara bata bilmir. Ona görə həmin bankların lisenziyasını geri ala bilmir".

**Qeyd edək ki, ekspertlər bankların tələsik şəkildə bağlanmasının bank sisteminə inamı sarsıtdığı qənaətindədirlər. Bildirilir ki, insanlar əmanətlərini banklara qoymaqdan çəkinir və ya banklarda olan depozitlərini geri çəkməyə çalışırlar. Ekspertlər əhalinin narahatlığının əsaslı olduğunu vurğulayırlar. Ekspert Əkrəm Həsənovun sözlərinə görə, təhlükə olduqca böyükdür:** "Ölkədə 40-dan artıq bank var, onların ən azı 30-u rüblük maliyyə hesabatını açıqlamır. Rüblük maliyyə hesabatının açıqlanması qanunvericiliyin tələbidir. Bu isə yalnız bankın göstəriciləri yaxşı olmadıqda məqsədli şəkildə gizlədilir. Bank bilir ki, vəziyyətini açıqlasa və insanlar bilsə, gəlib pullarını geri çəkəcəklər". Ekspertin sözlərinə görə, bunun gizlədilməsinin bir səbəbi də odur ki, hazırda banklar var gücü ilə əmanətləri cəlb etməyə çalışırlar: "Milli Məclisdə qəbul olunması gözlənilən əmanətlərin tam sığortalanması haqqında qanun da məhz buna hesablanıb".

❑ **Röya RƏFİYEVA**

# ABŞ neft hasilatını kəskin azaltdı




**Amerika şirkətləri ölkə ərazisindəki bütün neft quyularının 2/3-sini bağlayıb.**

Virtualaz.org saytı TASS agentliyinə istinadən xəbər verir ki, bunu dünən "International Petroleum weekand" forumunda çıxış edən "Total" neft şirkətinin başçısı Patrik Puyanne deyib.

"2015-ci ilin mart ayından ABŞ-da neft hasilatının azalması müşahidə olunur. Azalma sutkada 500 min barel sürəti ilə davam edir. Bu azalmanın hansı sürətlə davam edəcəyini bilmirik, amma hazırda neft quyularının 2/3-si işləmir", - Puyanne bildirib.

"Total" şirkətinin prezidentinin sözlərinə görə, dünya bazarında neftin izafi həcmi 2% təşkil edir. O, həmçinin qeyd edib ki, neftin qiymətini proqnozlaşdırmaq mümkün deyil.

YENİ MÜSAVAT
N 33 (6354) 12 fevral 2016




Cümə söhbətləri

# Dünya burulğanlarından salamat keçmənin formulu

**Bismillahir-Rahmənir-Rahim! Həmd olsun Allaha ki, bizlərə yaşamaq, düşünmək, dərk etmək nemətlərini əta edib. Əgər insan bu nemətlərin şükrünü yerinə yetirsə, bu şükür etmə durumu onu böyük təkamülə aparar. Nemətləri anlayıb, dərk edib, şükrünü yerinə yetirmək - əslində insanın təkamülünün başlanğıcına səbəb ola bilər. Bu qədər nemətlər bizləri əhatə edir. Biz öyrəşmişik, amma insan diqqət etsə, fərqinə varsa, dəyərləndirsə, o nemətlərin şükrünü edər. Ən böyük nemət də həyat, yaşamaq nemətidir. Allah Təala bizləri insan olaraq var edib, bizlərdə bu qədər istedadlar, imkanlar, bacarıqlar, iradəlilik, şüurluluq halı qoyub və bu dünyada mövcudiyyət imkanı verib ki, bu dünyamızda təkamül edək, Onun razılığı halına gəlib çataq. İnsana bir kəs bir kiçik hədiyyə verəndə, ona təşəkkür etmək istəyir. İnsan dərk etsə ki, Allah Təala bu qədər dəyərli, bu qədər lazımlı, bu qədər qiymətli məsələləri onun ixtiyarında qoyub, şükür ruhiyyəsinə yiyələnər.**

**Hacı İlqar İBRAHİMOĞLU, ibrahimoglu@gmail.com**
**İlahiyyatçı-filosof, İçərişəhər Cümə məscidinin imam-camaatı**



Yaşadığımız dünyada təəssüflər olsun ki, şükür etmək ruhiyyəsi insanlara aşılanmır. Təlim-tərbiyə sistemi içərisində Yaradanın bu nemətləri müqabilində şükür etmək öyrədilmir. Əksinə, dünyada mövcud olan sistem insanı bir eqoistik halda, "mənəmçilik" ruhiyyəsində böyüdür. Bunun nəticələri də bəllidir. "Mən"lərin toqquşması nəticəsində nələrin baş verdiyi göz önündədir. İnsanda bir şükür etmək ruhiyyəsi olsa, daha aliyə doğru hərəkətdə olar. Bir ailənin içərisində şükür mədəniyyəti yaşansa, orada nuraniyyət olar. İnsan gərək valideyn nemətinə, övlad nemətinə görə şükür etsin.

### Dünya - dərin dəniz kimidir

Yaşadığımız dünya - mürəkkəb imtahan dünyasıdır. Ən ciddi, ən uğurlu, ən dəqiq bənzətmələrdən biri - dünyanın dənizlə müqayisəsidir. Həzrət İmam Kazım (ə) nəql edir ki, Loğman (ə) oğluna dedi: **"Dünya dərin dənizə bənzər. Çox insanlar onda qərq olublar. Buna görə, xilas olmaq üçün sənin bu dənizdə mindiyin gəmi gərək İlahi təqva olsun. Onun yükü - iman, yelkəni - təvəkkül, kapitanı - ağıl, yolgöstərəni - elm və sükanı da səbir olsun".** Desək ki, bu buyuruşda insanın mövcudiyyətinin, yaşayışının ən ciddi təsviri verilib və necə yaşamağın ən lakonik, ən qısa, dərin, məzmunlu və bəlağətli şəkildə formulası verilib - yanılmarıq. Çox incəliklə, dəqiqliklə buyurulan nöqtələrdir.

### İlahi təqva nədir?

Çatdırılır ki, dünya bir dərin dəniz kimidir və üzə bilməyənlər də orada boğulur. Deməli, burada qurtulmağın yolu - yalnız bir miniyə malik olmaqdadır. Əks təqdirdə, burada batacağıq. Əgər insan desə ki, mən yaşayıram, baş çıxaracağam - özünü aldatmış olur. İnsan gərək qərar versin ki, burada bir miniyə sahib olsun. İnsan özü-özünə o miniyə malik olmur. O miniyin adı - İlahi təqvadır. Təqva nədir? Təqvaya müxtəlif təriflər, müxtəlif formalarda izah verilib. Onların ən uğurlularından biri budur ki, insanın o halına, durumuna, vəziyyətinə deyilir ki, insanda olan İlahi xofu onu haramdan çəkindirsin və onu Allaha itaətə tərəf yönəltsin. Yəni təqva o kateqoriyaya deyilir ki, insanda bir İlahi xof halı olsun ki, onu cəhənnəmə tərəf yaxınlaşdıran əməllərdən uzaqlaşdırsın və o əməl və davranışlar ki, cənnətə aparır, Allahın razılığına aparır - onlara tərəf yönəltsin. Deməli, təqvalı insanda İlahi xof halı olmalıdır. Yaxşı vəziyyətdədirsə, qorxmalıdır ki, bu vəziyyətini itirsin. Yüksək mənəvi durumdadır, namazı gözəl, ibadəti gözəl, hüzuri-qəlbi yerində, əməlləri gözəl, ixlası yerində, amma qorxur ki, birdən büdrəyər, əldə olanlarını itirər. Bu İlahi xof halı onu sabitqədəm saxlayır, qoymur ki, arxayınçılıq yaratsın. Diqqətli olur ki, öz vəziyyətindən çıxmasın. Qorxur ki, Allahın rəhmətindən, mərhəmətindən uzaq düşə bilər. Nə çoxdur bir ömür İslam yolunda xidmət edib, sonra büdrəyənlər. Nə çoxdur bir ömür aqibəti xeyirli durumda olub, amma bir an büdrəyib, sonra toparlana bilməyib məhv olanlar.

İlahi xof budur ki, insan özbaşına qalmaqdan, arxayın olmaqdan, Allahın nəsib etdiklərini itirməkdən qorxur. Pis iş görəndə də, pis iş tərəfə yönələndə də, büdrəyəndə də İlahi xof tez hərəkətə keçir, qoymur ki, o, pis iş tərəfə getsin. Əgər büdrəyibsə də, insanın tez əvvəlki halını geri qaytarır, insan tez yığır özünü, tez qaytarır özünü öncəki vəziyyətinə. Buna da insanın İlahi xof halında olması deyilir. Qorxur, narahatdır ki, olduğu yaxşı vəziyyətdən çıxar və ya olduğu pis vəziyyəti aradan apara bilməz, büdrəyib qalar. Namazı gözəldir, əxlaqı yaxşıdır, sileyh-rəhmi var, şükür ruhiyyəsi var və s. Qorxur ki, bütün bunları əldən verər.

Pis işləri görəndə də qorxur ki, bunlar onu Allahın qəzəbinə, Allahın hüzurunda rəzil olmağa aparır. Camaat nə deyər, nə deməz - onu maraqlandırmır. Onun özünün Allahla ünsiyyəti var, dərdləşməsi var. Yalan danışmaz, qeybət etməz, ara vurmaz, mübahisədən qaçar, pis işlərdən, haram işlərdən qaçar, bilər ki, bunlar Allahın qəzəbinə aparır. Cəhənnəmin istisini hiss edər, o istiyə tərəf getməz. İlahi təqva halı buna deyilir. İlahi təqva halı elə bir haldır ki, insanda olan xof onu yaxşı işlərə tərəf yönəldər və əksinə - pis, mənfi, haram, bəyənilməyən işlərdən uzaq saxlayar. Hətta özü-özlüyündə haram və günah olmayan, amma necə gəldi, əbəs olan işlərdən də uzaq durar. Görür ki, bunlar - dəyəri olmayan, boş-boşuna vaxt itirmədir, Allahın rəhmətindən bəhrələnmə deyil - bunlardan çəkinir. Buna təqva halı deyirlər.

### İnsanda İlahi xofu hərəkətə gətirən amil - imandır

Bu təqva gəmisinin yanacağı, yükü - imandır. O imandır ki, insanda İlahi xof halını yaradır. Əgər imanı olmasa, insanın İlahi xofu olmaz. Nəyə görə bir insan günah etməkdən qorxur, başqa biri isə qorxmur? Çünki birinin İlahi xofu var, digərinin isə yoxdur. Niyə birinin İlahi xofu var, başqasının isə yoxdur? Çünki, birinin imanı oyaqdır, birininki isə oyaq deyil. Gərək təqva gəmisini hərəkətə gətirən yanacaq - iman olsun. Təqvanın minik kimi istifadəsi üçün imandan başqa yanacaq işləmir.

### Əgər Allaha təvəkkül etsək...

İlahi təqva gəmisinin yelkəni təvəkkül olmalıdır. İlahi xofun nəticəsində insan ondan asılı olan nədirsə, onu edir. Sonra isə təvəkkül edir. Nə olacaqsa, onlara hazırdır. Çünki əsən küləklər - İlahi küləklər olacaq. Ondan asılı olan hər bir şeyi həyata keçirib. İmandan qaynaqlanan İlahi xofla davranıb, qalan nə olacaqsa, ona xoşdur. Gələn İlahi küləklərdən istifadə edir. Bilir ki, onlar - rəhmət küləkləridir. Təvəkkül budur ki, insan ondan asılı olanları etsin, sonradan külək hansı tərəfdən əsəcəksə, necə olacaqsa - ona xoşdur. Çünki, insan Allahın hüzurunda bir bəndə kimi imkanı çatan hər bir şeyi edib, qalanında isə Rəbbinə təvəkkül edir.

Bu gəminin kapitanı ağıldır. Dənizdə, okeanda müxtəlif hadisələr baş verir. Rastlaşdığı cürbəcür vəziyyətlər, hallar, müxtəlif durumlarda vahimə qüvvəsi ilə deyil, nəfsani istəklərlə deyil, emosiyalarla, instinktlərlə deyil, ağıl işığı ilə hərəkət edir. Ağıl işıq salanda baxıb görür ki, kənardan gələn təsirlər - vahimələdirr, vəsvəsələrdir.

### İmanın əsasını elm təşkil edir

Gəminin yolgöstərəni elmdir. İnsan həyatı iradəvi bir prosesdir. Gərək bilsin, sonra isə seçim etsin. Əgər bilməsə, seçim edə bilməyəcək. Gərək öncə bilsin, sonra isə seçimli həyat yaşasın. Gərək yolgöstərəni ona bilgi versin. İradəvi yaşamaq üçün gərək insan bilgi alsın. Necə yaşamaq bilgisini almaq lazımdır. O bilgi haradan gəldiyimizi, harada olduğumuzu və məhv olmamaq üçün yekuna gedib çıxa bilməmiz üçün nələr lazım olduğunu öyrədir. O bilgidir ki, imanın da bünövrəsində durur. İmanı da təmin edən həmin bilgidir. İman həmin bilgidir ki, biz ona iman gətiririk. Əgər insanın Qiyamətdən xəbəri olmasa, onun Qiyamətə imanı ola bilməz. Bizim günümüzdə ən böyük müsibətlərdən biri budur ki, bizlər hər bir şey haqqında bilgi alırıq, amma mövcudiyyətimiz haqqında bilgi almırıq. Övladlarımıza bütün məsələlərdə bilgi veririk, amma necə yaşamaqla bağlı bilgi vermirik. Təlim-tərbiyə sistemi insanın necə yaşaması haqqında, necə mövcud olması haqqında bilgi vermir.

Biz həyatımızda hər şeyi proqram üzrə edirik. Məktəbə getmək üçün bir proqram olur, məktəbdə bir proqram olur, məktəbdən sonra başqa bir proqram və s. Amma biz deyirik ki, Qurani-Kərim özü-özünə öyrəniləcək, Quran buradadır, biz də buradayıq. Bizim necə yaşamağımızı öyrətmək üçün gələn Kitabla lazımi təmasımız yoxdur. Bizim heç özümüzlə də təmasımız yoxdur. Biz hansısa xarici dildə felin hallarını öz halımızdan daha yaxşı bilirik. Dili öyrənmək çox mühüm məsələdir, amma biz özümüzü öyrənməyə də diqqət ayırmalıyıq, həm də daha çox diqqət ayırmalıyıq. Biz hələ özümüzü tanımamışıq.

### Daxildən və kənardan gələn müsibətlərdə səbir

Həmin gəminin sükanı da səbir olmalıdır. Səbir budur ki, əla vəziyyətdəsən, gözəl durumdasan, birdən dənizin bir dalğası səni vurur, silkələyir, amma sən müvazinətini itirmirsən, sükanı saxlayırsan. Gərək dalğaların vurması səni gözəl getməyindən, gözəl halından, düzgün seçilmiş xətt üzrə getməyindən çıxartmasın. Səbrin bir növü budur. Sən yaxşı, gözəl vəziyyətdəsən, təlatümlər olur, silkələyir, sükan əlindən çıxsa tam əks yerə gedə bilərsən - belə vəziyyətdə müvazinəti itirməmək, davam etmək səbirdir. Kənar imtahanlar, müsibətlər, bəlalar, silkələmələr səni getdiyin kursdan kənara çıxarmamalıdır. Digər bir növü isə budur ki, daxildən vahimələr gələr, nəfsani istəklər gələr, daxildən tələbatlar olar, amma sən yenə olduğun yaxşı vəziyyətdən çıxmazsan, səbir edərsən.

Əgər insan bütün bu sadalanan məsələlərə riayət etsə, okean, dəniz kimi təsvir edilən bu dünyada batmaz. Əvvəla, İlahi təqva miniyimiz olmalıdır. Bu İlahi təqva miniyimizin yanacağı, yükü - iman olmalıdır, Yelkənləri - təvəkkül olmalıdır. Daha sonra diqqət etməliyik ki, müxtəlif vahimələr, vəsvəsələr gələndə ağlımız vəziyyətə nəzarət etməlidir. Məlumat və bilgimiz - yolgöstərənimiz olmalıdır. Eyni zamanda sükanı da səbirlə möhkəm saxlamalıyıq. Əgər bunları edə bilsək, xoş olsun halımıza.

### İlahi təqva ağacları əkək ki, meyvələrindən bəhrələnə bilək

**Həzrət Əli (ə) buyurur: "Kim təqva ağaclarını əksə, hidayət, doğru yola yönəldilmə meyvələrini dərər".** Sən təqva ağaclarını ək, meyvələri görəcəksən. Övladını təqva ruhiyyəsi ilə böyüt, nəticəsini görəcəksən. Bir ailənin içərisində təqva ağaclarını ək, gec ya tez meyvələri olacaq. Bir insan toplumunda təqva ağacları əkilsə, meyvələri mütləq olacaq. Əgər təqva ağacları deyil, günah ağacları əksə, yenə də onun meyvələrini dərəcək. Amma bu meyvələr - fəsad meyvələri olacaq.

Bu gün müsəlmanların ən böyük problemi budur. Müsəlmanlar təqva miniyindən düşüb, başqa miniklər ardıncadır. Biri üçün nəfsi, biri üçün pul, biri üçün hansısa nəfsani məsələlər miniyə çevrilib. O zaman ki, müsəlman toplumu təqvanı minik edər, iman nuru onun yanacağı olar, təvəkkülü öyrənər, elm olun üçün meyar olar və səbirli davrana bilər - o zaman fərdin də, toplumun da qurtuluşu olar. Həzrət Əlinin (ə) dövründə insanlar Rəsulallahın (s) dövründə mindikləri təqva miniklərindən düşdülər. İlahi İmamdan (ə) imtina olundu, nəticələr çox acınacaqlı oldu.

**Allahım, bizlərə yanacağı iman, yelkəni təvəkkül, yolgöstərəni elm və sükanı səbir olan İlahi təqva miniyinə sahib olmağı nəsib et!**

**Allahım, bizləri dünya bataqlığında boğulub məhv olmağa qoyma!**

**Allahım, bizlərə təqvalı həyat yaşamağı nəsib et! Amin!**

# Evimizin içinə girən "tualetlər"

## Bakının köhnə binalarında acınacaqlı vəziyyət...

**Bakıda inşa edilən yeni tikililərin əksəriyyətinin girişlərində rəqəmsal kodlu qıfıllar olur ki, bu da binada yaşayan sakinlərin təhlükəsizliyinin təmin olunması baxımından önəmli faktor kimi qiymətləndirilir. Lakin paytaxtımızda yeni tikililərlə müqayisədə köhnə binalar daha çoxdur. Bu binaların isə əksəriyyətinin bloklarında nəinki rəqəmsal kodlu qıfıl, heç qapı belə yoxdur. Xüsusilə də "20 Yanvar" dairəsi, Bakının Yasamal rayonu Şərifzadə küçəsində yerləşən köhnə binalarda vəziyyət daha acınacaqlıdır.**

"20 Yanvar" dairəsində olduğumuz zaman söhbət etdiyimiz sakinlər bildirdilər ki, xüsusilə Xırdalan istiqamətinə hərəkət edən avtobusların dayanacağına yaxın məsafədə yerləşən binaların blokları demək olar ki, tualetə çevrilib. Sakin Feyruz Kərimov bildirdi ki, hətta havalar soyuq olduğu zaman binaların bloklarında küçə itlərinə də rast gəlmək olur: "Bura dayanacağa yaxındır. Eyni zamanda bu boyda ərazidə tualet yoxdur. Ancaq bu ona əsas vermir ki, yol üstündə olan şəxslər öz təbii ehtiyaclarını insanların yaşadıqları binaların blokunu tualet kimi istifadə etməklə ödəsinlər. Bu ərazidə yerləşən binaların əksəriyyəti köhnə tikililərdir. Elə binalar var ki, bu kimi səbəblərə görə sakinlər yığışıb bloklara qapı düzəltdiriblər. Ancaq hansı blokun qapısı yoxdursa, orada zibildən tutmuş digər bu kimi natəmizliyə rast gəlmək olur. Hətta hava soyuq olduğu zaman bir də görürsən ki, küçə itləri girib blokda yatıblar. Binaların təmirə ehtiyacı var. Pilləkənlər də yaxşı vəziyyətdə deyil".

**Oxşar hala demək olar ki, şəhərin bütün rayonlarında yerləşən köhnə binalarda da rast gəldik. Yasamal rayonu Şərifzadə küçəsində yerləşən binaların birində yaşayan Kərimin sözlərinə görə, bu ərazidə zibil əlindən tərpənmək olmur:** "Bu küçə demək olar ki, mərkəzi küçələrdən hesab olunur. Düz "Kaktus" restoranı ilə üzbəüz binada yaşayıram. Binamız köhnə olsa da, bloklara kodlu qapı qoydurmuşuq. Ancaq nə zaman ki, qapı təsadüfən açıq qalır, görürük blok zibillənib. Ona görə məcbur qalıb qapıya elan da yapışdırmışıq ki, qapını örtün. Doğrudur, binalar köhnədir. Ancaq gərək insanların özü də düşünə ki, sanitariya qaydalarına əməl etmək lazımdır. Xüsusilə son zamanlar qənaət rejiminə keçidlə əlaqədar küçələrin gecələr işıqları söndürülür. Bu da mövcud vəziyyəti daha da ağırlaşdırır. Binaların da heç birinin girişində işıq yoxdur".









Məsələ ilə bağlı Bakı Şəhəri İcra Hakimiyyəti yanında Mənzil Kommunal Təsərrüfatı Departamenti ilə əlaqə saxladıq. Departamentin sədr müavini Sabit Hüseynov musavat.com-a bildirdi ki, hansı rayondan şikayət varsa, həmin rayonun Mənzil Kommunal Təsərrüfatı Birliyinə müraciət etmək lazımdır. Bu kimi problemin şəhərin əksər rayonlarında olduğunu söylədiyimiz zaman S. Hüseynov telefonu qapatdı.

❑ **Əli RAİS**
**Fotolar: müəllifindir**


## Kişilər!!! Axırıncı şans!!!

**İsrail təbabəti** tətbiq edilir!

Əgər Sizə nə **Azərbaycanda,** nə də **xaricdə heç kim kömək edə bilməyibsə, onda yaxşı insanlara, aşağdakı xəstəlikləri,** keyfiyyətli, qısa müddətlə və tam müalicəsini **d-r Vaiz Səmədov apara bilər:**

---

* **Cinsi zəiflik, meyilin və ereksiyanın azalması tam impontensiyədək** (yaşdan və səbəbdən asılı olmayaraq)
* **Cinsi marağın** və **cinsi aktların** azalması
* **Vaxtından tez** toxum **ifrazatı** (səbəbdən asılı olmayaraq)
* **Toy gecəsinin** uğursuzluqları **(kişi tibbi problemlər)**
* **Prostatitlər.** Prostat vəzin **böyüməsi** və ya **kiçilməsi**
* **Prostat adenoması** *(vəzidə düyünlərin əmələ gəlməsi)*
* **Cinsi vəzilərin**-xayaların **böyünməsi** və ya **kiçilməsi**
* **Qasıq-xayalıqda** sızıltı, küt və ya kəskin **ağrılar**
* Əvvəldən **xarici cinsi üzvün** balaca olması
* **Xarici cinsi üzvün** sonradan **birdən kiçilməsi**
* **Cinsi üzvün** düyünlə birdən **əyilməsi** (Peyroni xəstəl.)
* **Oğlan uşaqlarında cinsiyyət üzvlərinin inkişafsızlığı**
* **Uşaqlarda** gecə vaxtı **yerinə sidiyə getməsi (*enurez*)**
* Hormonal və iltihablı **sonsuzluq** (kişilər və qadınlarda da)
* **Yuxusuzluq və yuxu pozuntuları**
* Sidik aktlarının gecə ya **gündüz tez-tez olması**
* Sidik aktlarının çətinlikləri və tutulmaları
* Cinsi aktla bağlı **sidikdə** və **spermada qan olması**
* **Zöhrəvi xəstəliklərdən** sonra **qalıqlar və ağırlaşmalar**
* **Saçların** bütün formalatda **tökülməsi. Sızanaqlar**
* **Yuxuda ikən və yuxudan qalxanda qan təzyiqinin yüksək qalxması**
* **Boyun, baş, bel, ayaq ağrıları və osteoxondroz**
* Onurğa sütununun yırtığı, quluncların dərmansız müalicəsi

---

Həkimə zəng etmək üçün (saat 11.00-dan sonra)
**Tel: (050) 213 88-05.**
**Həkimin 16 TV çıxışları: youtube.com və facebook.com doktor Vaiz Səmədov.**



## Montində, Nərimanov Məhkəməsinin həyətində 2 maşınlıq daş qaraj satılır.

**Obyekt kimi də istifadə etmək olar. Pultla idarə olunan jalüz qapıları var. Tavanı lambrin, döşəməsi tametdir. Ayrılıqda da istifadəyə yarayır. Sahibindən satılır, qiyməti bazar qiymətindən ucuz. Sənədi var.**

**Əlaqə nömrəsi (050) 264 49 99**


bakcell

## «Bakcell» şəbəkəsi 2015-ci ilin "Ən Yaxşı Mobil Şəbəkəsi" adına layiq görülüb

**Azərbaycanın İlk Mobil Operatoru və Aparıcı Mobil İnternet Provayderi «Bakcell» şirkəti 2015-ci ilin "Ən yaxşı mobil şəbəkə" adına layiq görülüb. 2016-cı il 5 fevral tarixində keçirilmiş tədbirdə şirkət "Business Time" jurnalının təsis etdiyi "Azeri Business Award" Milli Mükafatı ilə təltif olunub.**

**Öz abunəçiləri üçün daha geniş əhatə dairəsinə və daha yüksək ötürmə qabiliyyətinə malik olan şəbəkəni təmin edən «Bakcell» şirkəti ölkədə ən etibarlı və dayanıqlı şəbəkəyə sahibdir. «Bakcell», tezlik daşıyıcılarının birləşməsi texnologiyasından istifadə edən və "LTE-Advance" Kateqoriya 6 xidmətlərini göstərən dünya üzrə 73 şəbəkədən biridir. Təkmilləşdirilmiş «Bakcell» şəbəkəsi daha yüksək data sürətini (225 Mbit/saniyəyə qədər) dəstəkləməyə və HD Səs kimi innovativ texnologiyaları təqdim etməyə texniki baxımdan tam hazırdır.**

**2015-ci ilin ikinci rübündə aparılan mobil operator şəbəkələrinin müstəqil keyfiyyət monitorinqinin (bençmarkinq) nəticələrinə görə, «Bakcell» yüksək keyfiyyətli səs rabitəsi, dayanıqlı internet əlaqəsi və yüksək sürətli LTE şəbəkəsində ən yaxşı göstəricilərə sahib olmaqla rəqiblərini üstələyib.**

**"Bizim üçün ən böyük əhəmiyyət kəsb edən odur ki, indi şəbəkəmizin üstün keyfiyyəti mütəxəssislər tərəfindən müsbət qiymətləndirilməklə yanaşı, həm də Azərbaycanda fəaliyyət göstərən müxtəlif biznes sahələri tərəfindən tanınır" - deyə «Bakcell» şirkətinin Baş icraçı direktoru Riçard Şirer bildirib. «Bakcell» şəbəkəsinin üstünlüyü artıq özünü işgüzar müştərilərimizin sayının artmasında təzahür etdirir və şirkətimizin "Ən yaxşı mobil şəbəkə" nominasiyasında "Azeri Business Award" mükafatı ilə təltif olunması bunu bir daha sübut edir. Ötən bir neçə il ərzində «Bakcell» öz şəbəkəsinin inkişafına və genişləndirilməsinə böyük investisiyalar yatırıb. Biz yeni-yeni və daha effektiv vasitələri tətbiq etməklə bu istiqamətdə fəaliyyətimizi davam etdirməyi planlaşdırırıq" - deyə cənab Şirer əlavə etdi.**

**«Bakcell» öz abunəçilərini daha yüksək keyfiyyətli mobil rabitə xidmətləri ilə təmin etmək üçün öz şəbəkəsinin inkişafına daim investisiyalar yatırır.**

## Binəqədidə 24 yaşlı kişi 39 yaşlı sevgilisini boğub öldürdü

**Binəqədi rayonunda qətl hadisəsi baş verib. Binəqədi Rayon Polis İdarəsindən APA TV-yə verilən məlumata görə, hadisə 9-cu mikrorayonda, Cavadxan küçəsində qeydə alınıb. Həmin ünvanda yerləşən mənzillərdən birində üzərində xəsarətləri olan qadın meyitinin aşkar edilməsi barədə hüquq-mühafizə orqanlarına məlumat daxil olub.**

Dərhal hadisə yerinə polis və prokurorluq əməkdaşlarından ibarət əməliyyat qrupu çıxıb. Meyitə baxış keçirilərkən onun kəndirlə boğularaq öldürüldüyü məlum olub. Araşdırmalar zamanı qətlə yetirilən qadının 1977-ci il təvəllüdlü Sədaqət Əsgərova olduğu müəyyən edilib. Məlum olub ki, qətli törədən şəxs 39 yaşlı qadınla qeyri-rəsmi nikah münasibətlərində yaşayan Qədimov Fəhmin Etibar oğludur. Saxlanılan şəxs istintaqa verdiyi ilkin ifadədə qadını qısqanclıq zəminində öldürdüyünü etiraf edib. 24 yaşlı Fəhmin Qədimov saxladığı qadın üçün Cavadxan küçəsində bir otaqlı mənzil kirayələyib. Qətl elə həmin mənzildə törədilib, Sədaqət Əsgərova ilə mübahisə edən Fəhmin onu kəndirlə boğduqdan sonra mənzilin qapısını bağlayıb və qadının maşınına minərək ərazini tərk edib. Ev sahibəsi hadisədən iki gün sonra təsadüfən mənzilə gəlib. Kirayənişinlərdən xəbər olmadığından şübhələnən sahibə özündə olan açarla qapını açıb və evdə meyit olduğunu görüb. Dərhal polisə məlumat verilib və polis əməkdaşları isti izlərlə Fəhmin Qədimovu taparaq həbs ediblər. Qeyd edək ki, qətli törətməkdə şübhəli bilinən Fəhmin Qədimov ailəlidir.

## "Ev qan içində idi" - Ağcabədidəki qətlin təfərrüatları

**Ağcabədi rayonunda qətl hadisəsi baş verib. APA-nın Qarabağ bürosunun xəbərinə görə, hadisə fevralın 10-da gecə Ağcabədi şəhərində qeydə alınıb. Rayon sakini olan 1956-cı il təvəllüdlü Əhmədova Kamilə Səfər qızı Üzeyir Hacıbəyov-13 ünvanında qətlə yetirilib.**

Ağcabədi rayonunda ötən gecə qətlə yetirilən qadının meyiti qonşuları tərəfindən aşkarlanıb.

Mərhum Kamilə Əhmədovanın qardaşı Kamil Mehrəliyev bildirib ki, bacısının Bakıda yaşayan övladları anaları telefon zənglərinə cavab vermədiyindən qonşulara zəng edərək nigaran qaldıqlarını deyiblər: "Evə gələn qonşular qapının açıq, bacımın meyitinin dəhlizdə olduğunu görüblər. Ev qan içində olub. Bacım heç çəkmələrini də soyunmayıbmış".

Yaxınları mərhum K. Əhmədovanın evə daxil olarkən qatil və ya qatillərlə qarşılaşdığını, onun ütü ilə başından vurularaq öldürüldüyünü ehtimal edirlər. Onlar qətlin oğurluq, qarət məqsədi ilə törədildiyini də ehtimal etmirlər. Məlumata görə, mərhumun qızılları üstündə olub.

O da bildirilib ki, K. Əhmədovanın qızı və oğlu Bakıda yaşadığı üçün o, evdə tək yaşayıb. K. Əhmədovanın evində Ağcabədidə ali məktəbdə təhsil alan tələbə qızlar kirayədə qalıb. Hazırda qış tətili olduğu üçün tələbələr evdə olmayıb.

# YENİ MÜSAVAT

Son səhifə

N 33 (6354) 12 fevral 2016




## 18 dəqiqədən bir telefona baxırıq

**Almaniyanın sağlıq sığorta şirkəti olan DAK gerçəkləşdirdiyi bir araşdırma nəticəsində ağıllı telefon istifadəçilərinin yatmadıqları zaman xaricində 18 dəqiqədən bir telefona baxdığını açıqlayıb. Gündə təxminən 53 dəfə telefonlarına baxan istifadəçilərin 3 saatlıq telefon istifadəsinin yalnız 7 dəqiqəsində telefonla danışırlar.**

DAK gerçəkləşdirdiyi "İnternet Orucu" kampaniyasında könüllülərin həftənin bəlli günlərində internetsiz, telefonsuz və kompütersiz yaşadıqlarını açıqlayıb. Kampaniyada iştirak edən könüllülərin sadəcə 21%-nin bu işi bacaracağı düşünülürdü. Onların 67%-i içki və siqaretdən vaz keçməyin daha asan olduğunu deyiblər.

Amerikanın texnologiya şirkəti olan "Cisco Systems" 2020-ci ildə 5,4 milyard insanın aktiv mobil telefon istifadəçisi olacağını bildirib. Həmin ildə isə 2,8 milyard insan maşın sahibi olacaq.

# 1111 karatlıq almaz

**2015-ci ilin son aylarında ortaya çıxan dünyanın ən böyük almazı sonunda öz adına qovuşub. Son 100 ildə ən böyük almaz olaraq qeydə alınan 1111 karatlıq almaz artıq "Lesida La Rona" adlandırılacaq. Bu ad Afrika dilində "işığımız" kimi tərcümə olunur.**

Almazın sahibi olan kanadalı Lucara şirkəti dəyərli daşa ən yaxşı adı vermək üçün yarışma təşkil edib. 11 mindən çox adın içindən almaza seçilən ad "Ernest an Young" şirkəti tərəfindən qorunacaq. Kanadalı şirkət almazı tapdığını açıqladıqdan sonra qiyməti xeyli artıb. Almazın dəyərinin nə qədər olduğu hələ açıqlanmayıb. Bu günə qədər onu almaq üçün 40 milyon dollar təklif edildiyi deyilib. Lakin daşın qiymətinin 66 milyon dollar ola biləcəyi də istisna edilmir.



Məlumat üçün bildirək ki, indiyədək ən böyük almaz 1905-ci ildə Afrikada tapılmışdı. "Cullinan Diamond" adlı almaz 3106 karat olub. Hazırda o, İngiltərənin Krallıq ailəsinə məxsus Tower of London muzeyində sərgilənir.

# Qara çörəkotunun faydaları

**Qənnadı və çörəkbişirmə sahələrində geniş istifadə olunan çörəkotu bitkisinin toxumlarının bir sıra faydaları var:**

- Mikrob, virus və göbələklərə qarşı öldürücü təsirə malikdir.
- Bəlğəmi yox edir və tənəffüs borusunu genişləndirir.
- Xərçəngə qarşı qoruyucu təsiri var.
- Qan şəkərini tənzimləyir.
- Yorğunluq halını aradan qaldırıb, gümrahlıq verir.
- Damar sərtliyi, damar tutulması kimi xəstəliklərin qabağını alır.
- Təzyiqin və xolestorolun normal olmasını təmin edir.
- Cinsi gücü artırıcı təsiri var.
- Həzmi asanlaşdırır.
- Bədəndəki zəhərləri süzərək yox edir.
- Sidikqovucu xüsusiyyəti var.
- Saç tökülməsi və kəpəyə qarşı güclü vasitədəir.





## Nəzarətçisi ilə həbsdən qaçdı

**İsveçrədə 15 yaşlı qıza xətər yetirdiyi üçün 4 il müddətinə azadlıqdan məhrum edilən suriyalı Hassan Kiko nəzarətçisi ilə birlikdə həbsxanadan qaçıb. 27 yaşlı məhkum 32 yaşlı Angela Magdici adlı qadınla birlikdə izini itirib. Həbsxana rəhbərliyi Kikonun qaçmasına sevgilisi olan nəzarətçinin kömək etdiyi və hazırda İtaliyaya getdiklərindən şübhələnir. 2011-ci Suriyadan qaçan və İsveçrədə həbs edilən gəncin BMW markalı qara maşın sürdüyü bilinir.**



## Oğurladığı maşının içində yatdı

**Tayvanda yaşayan Somnuek Riabhuad adlı oğru özəl mülkə zərər verdiyi üçün həbs edilib. Bangkok Postun xəbərinə görə, S.Riabhuad oğurladığı maşında yuxuya gedib. 37 yaşlı kişi oğurlamaq istədiyi maşının arxa şüşəsini qıraraq içinə girib. Şüşəsi qırılmış maşını görən polislər içində yatan oğrunu oyadaraq maşının ona aid olub-olmadığını soruşub. Oğrunun qorxmasından sonra maşının sahibi Natthavut Kultrakar hadisə yerinə çağırılıb. 18 yaşlı maşın sahibi heç bir əşyasının oğurlanmadığını deyib. Oğru polis şöbəsinə aparıldığı zaman, sadəcə, yatmaq üçün maşının şüşəsini qırdığını iddia edib.**




**QOÇ** - Müntəzəm surətdə təmasda olduğunuz adamların obyektiv rəyləri ilə hesablaşmağa çalışın. Məsləhət almaq ayıb iş deyil. Qazanmaq üçün çoxsaylı şanslarınız da mümkündür.

**BUĞA** - Maraqlı görüşlər yolunuzu gözləyir. Güman ki, sizi böhranlı vəziyyətdən çıxara bilən insanlarla qarşılaşacaqsınız. Amma belə məqamlarda təmkinli olun ki, sonda gülə biləsiniz.

**ƏKİZLƏR** - İşgüzar və riskli sövdələşmələrdə iştirakınızı təxirə salmağa çalışın. Ən azından bu təqvim deyilən məsələlər üçün önəmli deyil. Gün ərzində dostlarınızla bir yerdə olun.

**XƏRÇƏNG** - Bəxtinizə fəaliyyət və yeni əlaqələr üçün ən uğurlu məqamlar düşəcək. Odur ki, mövcud potensialınızdan maksimum bəhrələnin. Müqəddəs yerləri ziyarət etmək yaxşı olardı.

**ŞİR** - Məqsədlərinizi həyata keçirməkdə bəzi maneələrlə üzləşsəniz də, günün ümumi mənzərəsi istəyinizə uyğun tərzdə canlanacaq. Büdcənizdə artım da mümkündür, amma səhhətinizi qorumalısınız.

**QIZ** - Şəxsi işlərinizdə böyük dönüş gözlənilir. Qarşıda duran yarım ay ərzində görəcəyiniz işləri reallığa yaxınlaşdırmaq üçün müttəfiqlərinizlə əlaqələri dərinləşdirməlisiniz.

**TƏRƏZİ** - Günün ümumi mənzərəsi gərgin olsa da, bunun qarşısını ala bilərsiniz. İlk növbədə səbr nümayiş etdirin. Nahardan sonra isə yalnız istirahət və gəzintilərə meyl edin.

**ƏQRƏB** - Gələcək perspektivlərinizi reallaşdırmaq istiqamətində tənbəllik edirsiniz. Belə ki, sizə lazım olan bütün gedişləri bildiyiniz halda fəaliyyət göstərmirsiniz. Əzmkarlığınızı artırın.

**OXATAN** - Başınızdakı yeni ideyaları reallaşdırmağı bacarsanız, uğurlarınız daha da yaxınlaşacaq. Yeganə narahatçılığınız səhhətlə bağlı ola bilər. Büdcənizi boş məsrəflərə xərcləməyin.

**OĞLAQ** - İxtiyarınıza elə bir gün verilib ki, yalnız öz gücünüzə güvənməlisiniz. Kənar müdaxilə və məsləhətlər o qədər də önəmli deyil. Günün ikinci yarısını bütünlüklə sevgiyə həsr edin.

**SUTÖKƏN** - Çoxdan bəri donub qalmış planlarınızı dirçəltmək üçün bəzi şəxslərə müraciət etməyiniz böyük səmərə verə bilər. Saat 14-dən sonra iştirak etdiyiniz bütün görüşlər xeyrinizədir.

**BALIQLAR** - Səhər saatlarında qeyri-ciddi adamların xoşagəlməz rəftarı ilə üzləşə bilərsiniz. Çalışın ki, belə amillər ovqatınızı korlamasın. Nahardan sonra səfərə çıxmağa dəyər.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

## 70 yaşında bank soydu



**Belçikada 70 yaşlı kişi borclarına görə iki bankı qarət edib. O, həbs edildiyi zaman çarəsiz qaldığı üçün bu yola baş vurduğunu deyib. Belçikanın Anvers şəhərində yaşayan 70 yaşlı kişinin bank soyması ölkə mediasının ən önəmli mövzularından birinə çevrilib. Polislər tərəfindən ələ keçirilən yaşlı kişi törətdiklərini etiraf edərək, "üzr istəyirəm, başqa çarəm yox idi" deyə açıqlama verib. Oğurladığı minlərlə avronu evinə aparan yaşlı oğru texniki təqibin köməyi ilə tapılıb.**

Səhifəni hazırladı: ŞAHNAZ


Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Nazim SABİROĞLU

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Lisenziya N: B 114
SAYI: 5.300